

NƏ QƏDƏR Kİ MÜSTƏQİL AZƏRBAYCAN DÖVLƏTİ VAR, AZƏRBAYCAN XALQI VAR, HEYDƏR ƏLİYEV ÜRƏKLƏRDƏ YAŞAYACAQDIR!

VAHİD AZƏRBAYCAN UĞRUNDA!

# iki sahil

www.ikisahil.az / www.ikisahil.tv

GÜNDƏLİK İCTİMAİ-SİYASİ QƏZET | № 70 (7325) / Cümə, 19 aprel 2019-cu il


## Prezident İlham Əliyev sakinlərlə görüşdü

# Minimum əməkhaqqı, minimum pensiya bundan sonra da qaldırılacaq



BAX: SƏH. 2

## “Dünya dini liderlərinin II Bakı sammiti” ilə əlaqədar yaradılmış Təşkilat Komitəsinin ilk iclası



⇨ Bax: səh. 3

Bax: səh. 6



*Valentina Matviyenko:*

## Mehriban xanım çox maraqlı həmsöhbətdir

## Naxçıvanda komanda-qərargah təlimləri



⇨ Bax: səh. 5

## Bakı Dövlət Universitetində SOCAR istiqrazları və “İqtisadiyyat 2.0” mövzusunda konfrans



⇨ Bax: səh. 7

Bax: səh. 7



## “Azərbaycan tarixinin fəlsəfi dərki və müasir dövr”

Bax: səh. 8-9

## SOCAR-ın təlim-tədris mərkəzləri peşə təhsilinin nüfuzunun artmasında mühüm rol oynayır




13 — “Ümid”də yeni quyunun debiti: Sutkada 2.5 milyon kubmetr qaz və 400 ton kondensat

10 — Düyərlidə daşıyıcı qaz kəmərləri yenidən qurulur

16 — Pis vərdişlər stressin qarşısını almır

## Prezident İlham Əliyev sakinlərlə görüşdü

# Minimum əməkhaqqı, minimum pensiya bundan sonra da qaldırılacaq

### Prezident İlham Əliyev Bakının Qaraçuxur qəsəbəsində yenidən qurulan Neftçilər parkında yaradılan şəraitlə tanış olub



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva aprelin 18-də Bakının Suraxanı rayonunun Qaraçuxur qəsəbəsində əsaslı şəkildə yenidən qurulan Neftçilər parkında yaradılan şəraitlə tanış olublar.**

AZƏRTAC xəbər verir ki, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov və Suraxanı Rayon İcra Hakimiyyətinin başçısı İlqar Abbasov əsaslı şəkildə yenidən qurulan Neftçilər parkında yaradılan şərait barədə dövlətimizin başçısına məlumat verdilər.

Qeyd edildi ki, bu istirahət parkı 1982-ci ildə salınıb. "Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı" çərçivəsində ötən ilin martından parkda yenidənqurma işlərinə başlanılıb. Ümumi sahəsi 6 hektar olan ərazinin 4 hektarlıq hissəsində mədəniyyət və istirahət parkı yaradılıb. Digər 2 hektarlıq sahədə isə meşə zolağı salınıb və velosiped yolları çəkilib, işıqlandırma işləri görülüb. Bu istirahət məkanında "IDEA" İctimai Birliyinin layihəsi çərçivəsində uşaq idman və futbol meydançaları salınıb, trenajorlar quraşdırılıb, uşaq və yeniyetmələrin əyləncəsi, asudə vaxtlarının səmərəli təşkili üçün müxtəlif attraksionlar və oyun elementləri yerləşdirilib.

Dövlətimizin başçısı və birinci xanım əvvəlcə burada istirahət edən sakinlər Zenfira Həsənova və Sübhanə Bayramova ilə görüşüb söhbət etdilər.

Prezident İlham Əliyev: Salam, xoş gördük.

Sakinlər Zenfira Həsənova və Sübhanə Bayramova: Salam. Çox sağ olun, minnətdarıq. Allah köməyiniz olsun. Allah Sizi var eləsin. Hər şey üçün Sizə təşəkkür edirik, var olun. Bu abadlıq işlərinə, bu gözəlliklərə görə Sizə minnətdarıq. Allah canınızı sağ eləsin. Çox sağ olun.

Prezident İlham Əliyev: Sağ olun. Bu park indi yeni görkəm alıb, tamamilə yenidən qurulub. Bu parkın böyük tarixi var. Əvvəlki görünüşünün şəkilləri orada vurulub və əlbəttə ki, vəziyyət o qədər də ürəkaçan deyildi. İndi isə çox müasir, gözəl park salınıb və vətəndaşların sərəncamına verilib.



Sübhanə Bayramova: Çox sağ olun. Nəinki bu parkımız, Azərbaycanımız gözəlləşib. Bütün respublikamızda doğrudan da aparılan islahatları görməmək mümkün deyil, o cümlədən Suraxanı rayonunda da. Son illərdə biz bunu görürük, çox təşəkkür edirik. Çox sağ olun, var olun.

Birinci xanım Mehriban Əliyeva: Gəlin, bu balaca gözəl oğlanlarla şəkil çəkdirək.

Prezident İlham Əliyev: Parklar şəhərimizin hər bir yerində salınır, o cümlədən qəsəbələrdə. Hesab edirəm ki, Bakı parkların sayına görə dünyada lider şəhərlərdən biridir. Bakıda gözəl, müasir parklar salınır, əvvəldən salınmış parklar yenidən bərpa olunur və o cümlədən qəsəbələrdə. Burada indi belə gözəl şərait yaradılıb ki, vətəndaşlar istirahət etsinlər.



Sübhanə Bayramova: Qeyd etmək istəyirəm ki, tək parklar yox, ümumiyyətlə təhsil, səhiyyə müəssisələri yenidən qurulur, müasir avadanlıqla təchiz edilir, məhəllələrarası yollar təmir olunur, işıqlandırılır, su hövzələri bərpa edilir. Doğrudan da Sizin sərəncamlarınız əsasında çox böyük islahatlar gedir. Biz Sizə çox təşəkkür edirik.

Prezident İlham Əliyev: Sağ olun. Rayonda, qəsəbədə təsərrüfat işləri necə gedir?

Rayon icra hakimiyyətinin başçısı İlqar Abbasov: Cənab Prezident, işlər çox yaxşı gedir. Bu gün artıq rayonun hər yerində, həmçinin Qaraçuxurda qaz, su, işıq problemləri yoxdur, hamısı gözəldir.

Prezident İlham Əliyev: Fasiləsiz?

Sakinlər: Bəli, çox gözəldir.

İlqar Abbasov: Rayonumuzun əhalisinin 40 faizi fasiləsiz su ilə təmin olunur. Hövsan Sizin həmişə diqqətinizdə olan ərazidir. Qaraçuxurda da əhali 40 faiz təmin olunur.

Prezident İlham Əliyev: Qaz 100 faiz?

İlqar Abbasov: Qaz da, işıq da 100 faizdir.

Sakinlər: Bəli, heç bir problemimiz yoxdur.

İlqar Abbasov: Su digər qrafiklə, amma sıx qrafiklə verilir. Heç bir çətinlik çəkilmir. Bir tək bir az kanalizasiya işlərimiz var ki, sağ olun, o da təsdiq etdiyiniz proqramda nəzərdə tutulub.

Prezident İlham Əliyev: Əlavə hansı işlər görülməlidir?

İlqar Abbasov: Qeyd edək ki, kanalizasiya şəbəkəsinin qurulması və asfalt vurulması rayonun tamamilə abadlaşdırılmasına gətirib çıxarır, heç bir problem qalmır.

Birinci xanım Mehriban Əliyeva: Məktəblərdə vəziyyət necədir?

İlqar Abbasov: Məktəblər. Rayonumuzdakı 35 məktəbin 30-u əsaslı təmir olunubdur, üçü qəzalı vəziyyətdədir, onlar bu il sökülüb yenidən tikiləcək, artıq proqramda var, ikisi əsaslı təmir olunacaqdır. Uşaq bağçalarımızın demək olar ki, hamısı təmir olunub, bir neçəsində qaçqın və məcburi köçkünlər yaşadığı üçün onlar köçürüldükdən sonra təmirinə başlanılacaq. Heydər Əliyev Fondunun təşəbbüsünə qoşularaq yeni uşaq bağçasının tikintisini davam etdiririk, yaxın zamanlarda bu barədə məlumat verəcəyəm. Bundan başqa, Yeni Günəşlidə Sizin tapşırığınızla hazırlanan layihə əsasında gözəl bir parkın, Fatimeyi Zəhra məscidinin tikintisi davam edir. Onun ətrafında da yeni bir park salınacaqdır. Bu yaxınlarda Qaraçuxurda daha bir parkın təmirinə başlayacağıq. Beləliklə, demək olar ki, rayonumuzun bütün problemləri həll edilmiş olur.

Sakinlər: Hər şey üçün çox sağ olun.

Prezident İlham Əliyev: Təbrik edirik sizi, çox sağ olun.

Zenfira Həsənova: Çox sağ olun. Bir də onu demək istəyirəm ki, son üç ayda verdiyiniz fərmanlara görə Sizə çox təşəkkür edirik. Orada pensiyaları, maaşları və ən əsası da kredit problemini nəzərə almısınız. Buna görə də Sizə çox təşəkkür edirik. Sağ olun.

Prezident İlham Əliyev: Sağ olun. Doğrudan da böyük işlərdir. Çünki Azərbaycanda bu məsələ elə səviyyədə həll olunur ki, bunun dünyada bənzəri yoxdur. Çünki bilirsiniz, bir çox ölkələrdə bu problem mövcuddur. Ölkələr və ölkə rəhbərlikləri çalışırdı bu problemi həll etsin, bəzi hallarda qərarlar qəbul edildi, icra olunmadı, bəzi hallarda hələ də müzakirələr gedir. Ancaq biz çox ciddi qərar qəbul etdik və bu, vətəndaşların maraqlarını maksimum nəzərə alan qərar oldu. Təqribən 800 minə yaxın insan bu Fərmandan faydalanacaq. O cümlədən minimum əməkhaqqının, minimum pensiyanın təxminən 40 faiz qaldırılması da önəmli addımdır. Ancaq onu da deməliyəm ki, bu artım böyük olsa da, bizi qane edə bilməz. Çünki bizdə maaşlar və pensiyalar bundan sonra da qaldırılacaq. Müvafiq göstəriş verildi. İndi hökumətdə iş aparılır, müvafiq nazirliklərə göstəriş verilib. İndi bizim maliyyə imkanlarımız artıb. Çünki ölkəmizdə aparılan ciddi iqtisadi islahatlar bizə əlavə gəlirlər gətirib. Artıq bu ilin əvvəlindən büdcəyə kifayət qədər böyük məbləğ daxil oldu və yığılan əlavə büdcə gəlirləri mənim göstərişimlə, ilk növbədə, vətəndaşların sosial müdafiəsinə istiqamətləndirilməlidir, o cümlədən maaşların, pensiyaların qaldırılmasına. Baxmayaraq ki, biz mart ayında bu qərarı qəbul etdik və aprelin əvvəlindən sosial müavinətlərin artımı qüvvəyə mindi, burada da sosial müavinətlər orta hesabla iki dəfə artırılıb və 600 minə yaxın insan bu proqramla əhatə olunub. Bu istiqamətdə işlər davam etdiriləcək. Minimum əməkhaqqı, minimum pensiya Azərbaycanda bundan sonra da qaldırılacaq ki, vətəndaşlar daha da yaxşı yaşasınlar.




⇨ Davamı 4-cü səhifədə

# Azərbaycan-İran: ölkələrimiz arasında ticarət dövriyyəsinin səviyyəsi artıb

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 18-də İran İslam Respublikasının sənaye, mədən və ticarət naziri Reza Rəhmaninin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**



AZƏRTAC xəbər verir ki, nazir Reza Rəhmani İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında ikitərəfli münasibətlərin siyasi, iqtisadi, nəqliyyat, mədəniyyət və bütün digər istiqamətlərdə, o cümlədən sənaye və ticarət sahələrində uğurla inkişaf etdiyini vurğuladı.

Görüşdə ölkələrimizin birgə layihələri çərçivəsində Neftçala Sənaye Məhəlləsində avtomobil zavodunun uğurla fəaliyyət göstərdiyi, Bakıda əczaçılıq zavodunun inşa ediləcəyi, İran İslam Respublikasının sənaye, mədən və ticarət naziri Reza Rəhmaninin Azərbaycana bu səfəri zamanı isə Hacıqabul Sənaye Məhəlləsində avtobus istehsalı zavodunun təməlinin qoyulacağı qeyd edildi.

Söhbət zamanı ölkələrimiz arasında ticarət dövriyyəsinin səviyyəsinin artdığı vurğulandı, sənaye sahəsində uğurlu layihələrin həyata keçirildiyi bildirildi və bu istiqamətdə əməkdaşlığın genişləndirilməsi üçün yaxşı perspektivlərin və əlavə imkanların olduğu qeyd edildi.

Dövlətimizin başçısı İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını İran Prezidentinə çatdırmağı xahiş etdi.

# "Dünya dini liderlərinin II Bakı sammiti" ilə əlaqədar yaradılmış Təşkilat Komitəsinin ilk iclası



**Aprelin 18-də Nazirlər Kabinetində "Dünya dini liderlərinin II Bakı sammiti" ilə əlaqədar yaradılmış Təşkilat Komitəsinin ilk iclası keçirilib.**

AZƏRTAC xəbər verir ki, Baş nazirin müavini, Təşkilat Komitəsinin sədri Əli Əhmədov Prezident İlham Əliyevin bu il noyabrın 14-15-də "Dünya dini liderlərinin II Bakı sammiti"nin keçirilməsi haqqında Sərəncam imzaladığını xatırladıb. Bildirib ki, bu sammitin keçirilməsi məqsədilə yaradılmış Təşkilat Komitəsində dövlət və hökumət qurumlarının, ictimai təşkilatların, dini qurumların rəhbərləri və nümayəndələri təmsil olunurlar.

Baş nazirin müavini deyib ki, Azərbaycan mötəbər beynəlxalq tədbirlərin keçirildiyi məkana çevrilib. Ölkəmiz multikulturalizmin mərkəzi kimi din xadimlərinin iştiraki ilə bir sıra tədbirlərə də ev sahibliyi edib. 2010-cu ildə Azərbaycanda "Dünya dini liderlərinin I Bakı sammiti" keçirilib. Şeyxülislam Allahşükür Paşazadənin anadan olmasının 70 illiyi ilə bağlı yubiley tədbirləri çərçivəsində Bakıda növbəti beynəlxalq sammitin keçirilməsi Prezident İlham Əliyev tərəfindən məqsədəuyğun sayılıb. Bu tədbirin keçirilməsi bir tərəfdən Azərbaycanda dini tolerantlığa töhfə kimi qəbul olunacaq, eyni zamanda, müxtəlif ölkələrdən dini liderlər, ayrı-ayrı dini konfessiyaların nümayəndələri bəşəriyyəti narahat edən problemlər ətrafında fikir mübadiləsi apara biləcəklər.

Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə sammitin millətlərarası və dinlərarası münasibətlərin davamlı inkişafına xidmət edəcəyinə əminliyini ifadə edib.

Sonra iclasda "Dünya dini liderlərinin II Bakı sammiti"nin keçirilməsi, fəaliyyət proqramının tərtib olunması, qonaqların sayının dəqiqləşdirilməsi və digər zəruri tədbirlərin həyata keçirilməsi ilə bağlı fikir mübadiləsi aparılıb, təkliflər səsləndirilib.

# Xorvatiyalı nazir Bakıya gələcək

Aprelin 29-da Xorvatiyanın Baş nazirinin müavini, xarici və Avropa əlaqələri naziri Mariya Peyçinoviç-Buriçin Bakıya rəsmi səfəri planlaşdırılır.

Xorvatiyanın Azərbaycandakı səfirliyindən Trend-ə özəl olaraq verilən məlumata görə, nazir Azərbaycanın iqtisadiyyat naziri Şahin Mustafayevlə birgə Xorvatiya-Azərbaycan biznes forumunda iştirak edəcək.

Daha sonra xorvatiyalı nazir Xorvatiyanın Bakıdakı səfirliyinin açılış mərasiminə qatılacaq.



## Vahid Əliyev ordenlə təltif edilib

Prezident İlham Əliyev Vahid Əliyevin 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb.

Sərəncamda qeyd edilir ki, Azərbaycan Respublikasında hərbi sahədə səmərəli fəaliyyətinə görə Vahid Əli oğlu Əliyev 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilsin.

## Mirzəcan Xəlilov "Şöhrət" ordeni ilə təltif edilib

Prezident İlham Əliyev Mirzəcan Xəlilovun "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb.

Sərəncamda qeyd edilir ki, Azərbaycan Respublikasının ictimai-siyasi həyatında fəal iştirakına görə Mirzəcan Mirzəmməd oğlu Xəlilov "Şöhrət" ordeni ilə təltif edilsin.

## Səbaildə avtomobil yollarının yenidən qurulmasına 2,45 milyon manat ayrılıb

Prezident İlham Əliyev Bakı şəhərinin Səbail rayonu ərazisində avtomobil yollarının yenidən qurulması işlərinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında Sərəncam imzalayıb.

Sərəncamda qeyd edilir ki, Bakı şəhərinin Səbail rayonu ərazisində avtomobil yollarının yenidən qurulması işlərinin davam etdirilməsi məqsədilə Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 2,45 milyon manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

Maliyyə Nazirliyinə Sərəncamda göstərilən məbləğdə maliyyələşməni təmin etmək, Nazirlər Kabinetinə bu Sərəncamdan irəli gələn məsələləri həll etmək tapşırılır.

## Konstitusiya Məhkəməsi sədri və hakiminin maaşı artırılıb

Prezident İlham Əliyev "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanunu imzalayıb. Dəyişikliyə əsasən qanunda 71.2-ci maddə aşağıdakı redaksiyada verilir:

"71.2. Konstitusiya Məhkəməsi sədrinin aylıq vəzifə maaşı Azərbaycan Respublikası Milli Məclisi Sədrinin aylıq vəzifə maaşına bərabərdir.";

1.2. aşağıdakı məzmunda 73.10-cu maddə əlavə edilsin:

"73.10. Konstitusiya Məhkəməsinin hakiminə bir aylıq vəzifə maaşı həcmində vəzifə maaşına əlavə ödənilir.".

Qanun 2019-cu il aprelin 1-dən qüvvəyə minir.

## Hesablama Palatası üzvlərinin maaşı ikiqat artırılıb

Prezident İlham Əliyev "Hesablama Palatası haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanunu təsdiqləyib.

Qanuna aşağıdakı məzmunda 34.4-cü maddə əlavə edilir:

"34.4. Hesablama Palatasının üzvlərinə bir aylıq vəzifə maaşı həcmində vəzifə maaşına əlavə ödənilir.".

Qanun 2019-cu il aprelin 1-dən qüvvəyə minir.

## Prezident İlham Əliyev sakinlərlə görüşdü

# Minimum əməkhaqqı, minimum pensiya bundan sonra da qaldırılacaq

### Prezident İlham Əliyev Bakının Qaraçuxur qəsəbəsində yenidən qurulan Neftçilər parkında yaradılan şəraitlə tanış olub

⇨ Əvvəli 2-ci səhifədə

Sakinlər: Sağ olun. Təşəkkür edirik.

Prezident İlham Əliyev: Sağ olun.

* * *

Bu il fevralın 26-da Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü və iştirakı ilə "Xocalıya ədalət!" kampaniyası çərçivəsində Xocalı soyqırımı qurbanlarının xatirəsini əbədiləşdirmək məqsədilə parkın ərazisində 613, bu il aprelin 6-da isə Azərbaycanın 10 milyonuncu sakininin dünyaya gəlməsi şərəfinə daha 300 ağac əkilib.

Parkın ərazisində neft buruğunun rəmzi olaraq stela quraşdırılıb, yaşıllıqlar salınıb, 2 min yeni ağac əkilib, Azərbaycan Respublikasının Milli Qəhrəmanı Cavanşir Rəhimovun 1999-cu ildə quraşdırılmış büstü bərpa edilib, bütün ətraf ərazisi yenidən qurulub, "Veteranlar guşəsi" və iaşə obyektləri yenilənib.





* * *

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Milli Qəhrəman Cavanşir Rəhimovun abidəsini ziyarət etdilər.

* * *

Sonra dövlətimizin başçısı və xanımı parkda istirahət edən digər sakinlərlə görüşüb söhbət etdilər.

Sakinlər: Nə gözəl qonaqlarımız gəlib. Xoş gəlmisiniz, necəsiniz?

Prezident İlham Əliyev: Salam. Çox sağ olun.

Milli Qəhrəman Cavanşir Rəhimovun anası Lalə Rəhimova: Allah Sizə cansağlığı versin. Bu gözəl balamız Milli Qəhrəmandır. Siz həmişə şəhid ailələrinin hörmətini saxlamısınız. Allah Sizi hörmətli eləsin. Biz hər səhər bu parkı ziyarət edirik. Sizin tapşırığınız əsasında yenidən qurulan bu park indi başqa bir aləmdir. Allah Sizi var eləsin, ömrünüz uzun olsun gözəl Prezidentimiz.

Prezident İlham Əliyev: Sağ olun. Bu park doğrudan da indi çox gözəl görkəm alıb, müasirləşib, böyük quruculuq işləri aparılıb, yaşıllıqlar salınıb. Bu parkın əvvəlki vəziyyəti sizə yaxşı bəllidir. Burada çox böyük işlər görülüb və vətəndaşların istirahəti üçün geniş imkanlar yaradılıb.



Sakinlər: Sizə təşəkkür edirik. Sizin rəhbərliyinizlə bizim rayonumuz da gözəlləşib. Nəinki bizim rayonumuz, bütün Bakı şəhəri gözəlləşib. Çox sağ olun, minnətdarıq Sizə.

Şəhid anası Saray Quliyeva: Zəngilan rayonundan məcburi köçkünəm. Sizin sayənizdə bütün qayğılarımız həll olunub. Sizin diqqət və qayğınız sayəsində övladlarımın hamısı ali təhsil alsonra da ilk Sərəncamınızı bizim üçün imzaladınız.

Prezident İlham Əliyev: Bəli, Sərəncam imzaladım və bu Sərəncam indi icra edilir. Əminəm ki, ilin sonuna qədər tam icra ediləcək və 11 min manat ödəniş veriləcək.

Lalə Rəhimova: Verilibdir, mən artıq almışam.

Prezident İlham Əliyev: Sizə verilib, bəzilərinə hələ ki, verilməyib, onlara da veriləcək. Ondan sonra müavinətlər də 242 manatdan 300 manata artırıldı. Əlbəttə, Azərbaycanda digər sosial ödənişlər də artırılıb və biz daha da artıracağıq, çünki buna ehtiyac var. Biz minimum əməkhaqqını, minimum pensiyanı artırırıq. Ancaq daha da artırılmalıdır və artırılacaq. Hazırda iqtisadi vəziyyətimiz də, maliyyə vəziyyətimiz də yaxşıdır. Biz əlavə əldə edilmiş bütün gəlirləri vətəndaşların sosial müdafiəsinə yönəldəcəyik.

Saray Rəhimova: Sizə tələbələr adından təşəkkürümü bildirirəm. Mənim nəvəm yüksək balla ali məktəbə qəbul olub, Prezident yanında Dövlət İdarəçilik Akademiyasında təhsil alır, onların da təqaüdünü artırmısınız. Bir nənə kimi bütün o uşaqların adından Sizə dərin təşəkkürümü bildirirəm. Elə hesab edin ki, bütün o uşaqlar Sizə təşəkkür edirlər. Mən çox sevindim, çünki təqaüdün tələbə üçün nə demək olduğunu bilirəm.

Prezident İlham Əliyev: Çox sağ olun. Biz həm təqaüdləri artırmışıq, həm də təqaüd alan tələbələrin sayını.

Saray Rəhimova: Bu il də əlaçı oldu. Qırmızı attestatla məktəbi qurtarıb, qəbul olub. İnşallah, gələcəkdə dövlətimizə, millətimizə xeyirli övladlar olarlar.

Prezident İlham Əliyev: İnşallah.

Lalə Rəhimova: Mənim Cavanşirim Qax rayonunda anadan olub. Qax rayonuna getmişdik. O dərəcədə dəyişib ki, Qaxı tanımaq olmur. Sizin sayənizdə çox gözəlləşib.

Prezident İlham Əliyev: Bəli, gözəlləşib.

Lalə Rəhimova: Allah mənə Cavanşirimin adını daşıyan bir övlad da verdi. İndi Cavanşirim hərdı. Bu iki gül bala nəvələrimdir. Biz Sizi dəstəkləyirik, Sizin yolla gedirik, Sizə inanırıq.

Prezident İlham Əliyev: Mən də sizə güvənirəm, sizə arxalanıram.

Lalə Rəhimova: Şəhid ailələri, Milli Qəhrəman ailələri də Sizinlədirlər.

Prezident İlham Əliyev: Mən də sizinləyəm, həmişə sizin yanınızdayam.



Lalə Rəhimova: Seçimimiz bəllidir, səmamız açıqdır, günümüz xoşdur, bu gözəl güzəranı bizə yaradırsınız, əmin-amanlıqdır, gecə rahat yatıb rahat dururuq. Allah Sizi var eləsin.

Prezident İlham Əliyev: Şəhid ailələrinə həmişə böyük diqqət olub, bu gün də bu, belədir.

Lalə Rəhimova: Seçkidən bi qulluqdadır, Sizin Heydər balanızla eyni vaxtda əsgərliyə gedib. Əsgərlərimiz Sizin əmrinizi gözləyirlər ki, o əzəli torpaqlarımızı tezliklə azad etsinlər. Şəhidlərimizin qanı tökülən torpaqlarımız azad olsun və hamılıqla yığışıb oralara ziyarətə gedək, Azərbaycanımızın bayrağı Şuşada dalğalansın. Amin! Necə ki, Lələtəpədə bayrağımız yüksəldi, eləcə də bütün Azərbaycan torpaqlarında yüksəlsin bayrağımız. Allah Sizi var eləsin! Allah Sizə nəvələrinizin toyunu görməyi qismət eləsin!

Prezident İlham Əliyev: Sağ olun.

Sakin Mirzəağa Quliyev: Mən də Sizi salamlayıram, xoş gəlmisiniz bizim rayonumuza. Bax, yaradılan bu abadlıqlar hamısı Sizin göstərişinizin nəticəsidir. Axşamlar buraya övladlarımızla, nəvələrimizlə, - mənim artıq 5 nəticəm var, - yığışanda Sizə minnətdarlıq edirik. Bütün sahələrdə əldə edilən böyük irəliləyişlər var. Xüsusilə bu sabitlik ki, Sizin hesabınıza, Sizin siyasətiniz sayəsində yaradılıb. Dünyada qarışıqlıq olduğu bir vaxtda Azərbaycanda əmin-amanlıq var. Bunun nəticəsində də bütün sahələrdə nailiyyətlər əldə edilir. Bütün bunlara görə Sizə minnətdarlığımızı bildiririk, Allah Sizə cansağlığı versin.

⇨ Davamı 5-ci səhifədə

## Prezident İlham Əliyev sakinlərlə görüşdü

# Minimum əməkhaqqı, minimum pensiya bundan sonra da qaldırılacaq

### Prezident İlham Əliyev Bakının Qaraçuxur qəsəbəsində yenidən qurulan Neftçilər parkında yaradılan şəraitlə tanış olub







⇨ Əvvəli 4-cü səhifədə

Prezident İlham Əliyev: Sağ olun.

Minayə Həsənova: Mən neftçi ailəsindənəm, buradakıların 70 faizi neftçi ailələrinin üzvləridir. Mənim 9 nəvəm var, Allah Sizin də nəvələrinizin canını salamat eləsin. Həmişə onları məktəbdən aparanda yapışırlar ki, nənə gedək bir az parkda gəzək. Mən hesab edirəm ki, bu park balaca Dubaydır. Onu bizə Siz bağışladınız. Bura əsl cənnətdir. Əvvəllər saat 4-5-dən sonra burada gəzmək olmurdu, qorxurduq. Hər tərəfi kol-kos basmışdı. İndi isə səhər saat 5-dək arxayın gəzmək olur.

Prezident İlham Əliyev: Mən də çox şadam ki, bu gün sizinlə birlikdəyəm. Ölkəmizin uğurlu inkişafı bundan sonra da təmin ediləcək. Siz də qeyd etdiyiniz kimi, Azərbaycan xalqı sabitlik şəraitində yaşayır. Əmin-amanlıq, sabitlik hər bir ölkənin inkişafı üçün əsas şərtdir. Biz indi dünyada baş verən hadisələri görürük, izləyirik. Harada ki, sabitlik pozulur, orada böyük faciələr baş verir. Azərbaycanda sabitliyin mənbəyi Azərbaycan vətəndaşlarıdır, onların fədakarlığıdır, onların bizə göstərdiyi dəstəkdir. Biz bu dəstəyə arxalanaraq böyük işlər görürük.

Bu gün Azərbaycan istənilən sahədə - iqtisadi sahədə, sosial məsələlərin həllində, infrastruktur layihələrinin icrasında liderlik göstərir. Nəinki mərkəzdə, qəsəbələrdə də yollar çəkilir, qazlaşdırma gedir, su xətləri çəkilir, belə gözəl parklar salınır.

Minayə Həsənova: Bunu görməyən nankordur, cənab Prezident.

Lalə Rəhimova: Mən hər gün xəbərləri izləyirəm, Sizin çıxışlarınıza qulaq asıram. Bir gün nəvəm gəldi yanıma dedi ki, bizim İlham babamız nə vaxt bizə qonaq gələcək?

Prezident İlham Əliyev: Gəlmişəm.

Saray Rəhimova: Sizə də, xanımınıza da cansağlığı arzulayıram. Koroğlunun Nigarı, İlhamın Mehribanı, Allah Sizi qorusun.

Prezident İlham Əliyev: Sağ olun.

Saray Rəhimova: Mehriban xanım, mən bir Azərbaycan qadını kimi, Azərbaycan anası kimi Sizinlə fəxr edirəm. Çünki Siz dünya siyasətində olan qadınların içərisində öz sözünüzü demiş bir insansınız. Allah övladlarınızı, nəvələrinizi saxlasın. Allah hamınıza cansağlığı versin.

Birinci xanım Mehriban Əliyeva: Çox sağ olun.

Saray Rəhimova: Siz gözəl ana, gözəl nənə, Azərbaycanın layiqli xanımısınız. Mən bir ana kimi Sizinlə fəxr edirəm ki, Azərbaycanın belə bir xanımı var. Bizim nəvələrimiz, balalarımız Sizdən örnək götürür, ailələrimiz Sizin ailənizdən örnək götürür. Çox şadıq ki, yolumuz açıq, səmamız aydın, getdiyimiz yol bəlli, inandığımız insan bizə arxa-dayaqdır.

Birinci xanım Mehriban Əliyeva: Çox sağ olun.

Minayə Həsənova: Gözümüz aydın olsun, 10 milyonluq xalq olduq. On milyonuncu Mehriban xanım oldu.

* * *

Əhalisinin sayı 89 min nəfər olan Qaraçuxur Suraxanı rayonunun qədim qəsəbələrindən biridir. Bu parkın müasir səviyyədə yenidən qurulması qəsəbə sakinləri ilə yanaşı, paytaxtımıza gələn qonaqların da asudə vaxtlarının səmərəli təşkili üçün geniş imkanlar açır. Ümumilikdə, son illərdə Prezident İlham Əliyevin rəhbərliyi ilə paytaxtımızın inkişaf tempinə uyğun olaraq yeni park, istirahət məkanları salınır, mövcudları isə müasir səviyyədə yenidən qurulur. Bütün bu işlər bir daha göstərir ki, paytaxtımızı dünyanın ən gözəl şəhərlərindən birinə çevirmək istiqamətində həyata keçirilən layihələr ardıcıl xarakter almaqla yüksək keyfiyyətlə icra olunur.

Dövlətimizin başçısının tapşırığı ilə Bakı şəhərində parkların və xiyabanların əsaslı şəkildə yenidən qurulması və yeni parkların salınması sakinlərin və şəhərimizin qonaqlarının rahatlığının təmin edilməsində, onların asudə vaxtlarının səmərəli təşkilində mühüm rol oynayır. Paytaxtda yeni parkların və yaşıllıq zolaqlarının salınması, əhaliyə xidmət göstərən müasir infrastrukturun yaradılması geniş vüsət alıb. Suraxanı rayonunun ərazisində yenidən qurulan bu istirahət məkanı da Bakı şəhərinin simasının daha da gözəlləşməsi və paytaxt sakinlərinin istirahəti baxımından olduqca əhəmiyyətlidir.

* * *

Sonda xatirə şəkli çəkdirildi.

# Naxçıvanda komanda-qərargah təlimləri



Dünən Əlahiddə Ümumqoşun Ordunun Təlim-Tədris Mərkəzində Naxçıvan Hərbi Qarnizonu Qoşunlarının uzlaşdırılmış plan üzrə kompüter dəstəkli komanda-qərargah təlimi keçirilib. Naxçıvan Respublikasının Ali Məclisinin Sədri Vasif Talıbov təlimi izləyib.

Əlahiddə Ümumqoşun Ordu komandanı, general-leytenant Kərəm Mustafayev Ali Məclisin Sədrinə raport verib. Əlahiddə Ümumqoşun Ordunun hərbi hissələri üçün alınmış xidməti avtomobillərə baxış olub. Bildirilib ki, hərbi hissələr müasir döyüş texnikaları ilə yanaşı, həm də xidməti avtomobillərlə təmin olunur. Yeni alınmış 10 ədəd "NİVA" markalı xidməti avtomobil hərbi hissələrin komandir və rəis heyətinin istifadəsinə veriləcək.

Sonra təlim başlayıb.

Ali Məclisin Sədri nəzəri dərslərin real ərazi maketləri üzərində keçirilməsi, uzlaşmış təlim və məşğələlərin nəticələrinin qarşılıqlı təhlil və müzakirə olunması barədə tapşırıqlar verib.

Sonra "Naxçıvan Hərbi Qarnizonu Qoşunlarının 2019-cu tədris ilinin Uzlaşma Planı" üzrə görülən işlərin nəticələrinə həsr olunmuş müşavirə keçirilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov müşavirədə çıxış edərək deyib: Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 18 dekabr tarixli Fərmanına əsasən Əlahiddə Ümumqoşun Ordunun yaradılması ilə Naxçıvanın müdafiə potensialının və hərbi hissələrin döyüş hazırlığının daha da yüksəlməsinə əsaslı zəmin yaranmışdır. Ötən il Əlahiddə Ümumqoşun Ordu tərəfindən həyata keçirilən uğurlu Günnüt əməliyyatı bunu bir daha təsdiq etdi. Ölkəmizin müharibə, muxtar respublikanın isə həm də blokada şəraitində olması və düşmən ölkə ilə sərhəddə yerləşməsi Naxçıvanda digər qoşun növlərinin - "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasının, "Naxçıvan" Əlahiddə Əməliyyat Briqadasının və Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin Mülki Müdafiə Alayının yaradılmasını da zərurətə çevirmişdir. Əlahiddə Ümumqoşun Ordunun, "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasının, "Naxçıvan" Əlahiddə Əməliyyat Briqadasının və Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin Mülki Müdafiə Alayının bir qarnizonda birləşməsi isə qarşılıqlı döyüş fəaliyyətinin təşkilində mühüm əhəmiyyət kəsb edirdi. Bu məqsədlə "Naxçıvan Hərbi Qarnizonu Qoşunlarının 2019-cu tədris ilinin Uzlaşma Planı"nın təsdiq olunması, keçirilən birgə təlimlər və qarşılıqlı fəaliyyət məmnunluq doğurur.

Ali Məclisin Sədri "Naxçıvan Hərbi Qarnizonu Qoşunlarının 2019-cu tədris ilinin Uzlaşma Planı" üzrə tapşırıqların uğurla yerinə yetirildiyinə görə Naxçıvan Hərbi Qarnizonu qoşunlarının şəxsi heyətinə təşəkkür edib.

# Rusiyadan Ermənistana "qazlı" zərbə



Elçin Zaman

**Son zamanlar Rusiyada da belə bir fikir formalaşır ki, bir müddət əvvələdək Rusiyanın "yaxın dostlarından" biri olan Ukraynanın Ermənistanın timsalında əkiz bacısı yaranır. Yəni artıq Ermənistanda 2018-ci ilin "məxməri inqilab"ından sonra antirusiya tərəfdaşlarının sayı davamlı artmaqdadır. Hətta Ermənistanın baş naziri Nikol Paşinyanın atdığı bir çox siyasi addımları Ukrayna Prezidenti Poroşenkonun siyasi addımlarının təkrarı da hesab edirlər.**

İş o yerə çatıb ki, hətta Paşinyanın təyin etdiyi yeni məmurlardan biri, diaspor üzrə nazir müavini, Amerika təhsilli Babken Ter-Qriqoryan Soros Fondunun tədbirlərində Rusiya Prezidentini açıq söyüşlə təhqir edib. Ermənistanın yeni əmək naziri Mane Tandilyan isə Ermənistanın Avrasiya İqtisadi Birliyindən çıxmasını təbliğ edir. Bütün bunlar bir daha göstərir ki, indiki hakimiyyətdə Rusiyaya qarşı hələlik açıq şəkildə çıxış etməyən yalnız Nikol Paşinyandır ki, o da yeqin məqam gözləyir.

Təbii ki, Rusiyanın hakim elitası da Ermənistanın bu antirusiya mövqeyinə biganə qalmayacaqdı. Xüsusilə son bir həftə ərzində Ermənistana qarşı iqtisadi təzyiqlər hiss olunmaqdadır. "Qazprom"un "Qazprom Ermənistan"da kütləvi ixtisarlara başlaması və Rusiyanın Ermənistana satdığı qazın hər min kubmetrinin qiymətinin minimum 15 dollar qaldıracağı ilə bağlı açıqlamaları erməni cəmiyyətində xeyli narahatlığa səbəb olub.

Son günlər erməni ekspertlər də açıq mətnlə bildirirlər ki, bu, artıq Moskvanın Paşinyan hakimiyyətini dolayısı vasitələrlə cəzalandırmağa başlamasıdır. Yəni Kreml Paşinyanın reytinqini aşağı salmağa cəhd etməklə Ermənistanda ona qarşı ciddi etiraz dalğası yaratmaq istəyir.

Əgər bir neçə ay əvvəl ermənilərin sosial-iqtisadi böhranın normallaşmasına və sabitliyin bərqərar olacağına azacıq ümidləri var idisə, indi artıq olub-qalan ümidlər də puça çıxıb. Çünki ötən bir il ərzində yeni hakimiyyət sosial-iqtisadi vəziyyətin yaxşılaşdırılması istiqamətində verdiyi vədlərin heç birini yerinə yetirə bilməyib. Burada bir məqamı da xüsusi vurğulamaq lazımdır ki, Paşinyanın ikili siyasəti, yəni həm Qərbin, həm də Rusiyanın əlinə oynaması qeyri-müəyyənlik yaradıb.

Rusiyanın "Qazprom" şirkətinin son addımlarını isə baş nazir Nikol Paşinyan aprelin 15-də jurnalistlərə açıqlamasında Moskvanın bu addımını Ermənistana təzyiq vasitəsi kimi dəyərləndirib. Onun sözlərinə görə, bu addımı Rusiyadan gözləmirdilər.

Qeyd edək ki, bu gün Ermənistanın özünü qazla təmin etmək üçün Rusiyadan başqa alternativi yoxdur. Baxmayaraq ki, alternativ variant kimi İrandan qaz almaq üçün cəhdlər edilir. Ancaq hələlik bu nəticə vermir. Təbii ki, əgər belə bir imkan olsaydı, Ermənistan çoxdan bu alternativdən yararlanardı. Alternativin olmaması isə Rusiyanı öz qazını bahalaşdırmağa sövq edir.

Erməni ekspertlərin fikrincə, Ermənistan vətəndaşları sabaha ümidsiz baxırlar. Hesab edirlər ki, Paşinyanın məğlubiyyəti ilk növbədə bölgələrdən və kəndlərdən başlayacaq. Səbəbi də indiyə kimi effektli idarəetmə sisteminin yaradılmaması ilə bağlıdır. Yəni inqilabçı baş nazirin verdiyi vədlərin fiaskoya uğramasıdır. Effektiv idarəetmə sisteminin yaradılmaması əyalətdə yaşayan insanların həyat şəraitinin pisləşməsinə səbəb olub. Ona görə də son aylarda bölgələrdə mütəmadi olaraq etiraz aksiyaları keçirilir. Burada digər bir məqam isə Paşinyan komandasının yekcins və təcrübəsiz olmasıdır. Komanda təcrübəsiz olduğundan fikir ayrılıqları yaranmaqda və bu proses dərinləşməkdədir.

Hətta sosial şəbəkələrdə ona ünvanlanmış tənqidlərdən bezən Paşinyan sərt olmağa çalışır və ölkəni "dəmir əllə" idarə etməyə cəhd edir. Aprelin 4-də sosial şəbəkə iştirakçısı olan biri Paşinyan hakimiyyətini dövləti məhv etməkdə ittiham edən bir status yazıb. Bundan sonra Paşinyan Təhlükəsizlik Xidmətinin rəhbərinə həmin şəxs barəsində ciddi tədbir görməyi tapşırıb. Onun tapşırığına qısa müddətdə əməl olunub. Təbii ki, Paşinyan hakimiyyətinin tənqidi fikirlərə kəskin reaksiya verməsi ciddi problemlərə yol açacaq və erməni xalqı qısa zamanda ölkədə inqilabi terrorun şahidi olacaqdır.

*Valentina Matviyenko:*

# Mehriban xanım çox maraqlı həmsöhbətdir

**Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurasının sədri xanım Valentina Matviyenko MDB Parlamentlərarası Assambleyası Şurasının aprelin 18-də Sankt-Peterburqda keçirilən iclası çərçivəsində Milli Məclisin sədri Oqtay Əsədov ilə görüşündə Azərbaycana aprelin əvvəllərində səfərini məmnuniyyətlə xatırlayıb.**

AZƏRTAC xəbər verir ki, V.Matviyenko səmimi qəbula və yüksək mükafata - Azərbaycanın "Dostluq" ordeninə layiq görüldüyünə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə təşəkkürünü bildirib.

Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurasının sədri Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva ilə görüşünün yüksək səviyyədə keçdiyini qeyd edərək deyib: "Mehriban xanım çox maraqlı həmsöhbətdir. Biz onunla görüşümüz zamanı xeyli söhbət etdik. Biz hörmətli Mehriban xanımın Birinci vitse-prezident kimi Rusiyaya səfərində maraqlıyıq".



Milli Məclisin sədri Oqtay Əsədov səmimi sözlərə görə təşəkkürünü bildirərək, xanım Valentina Matviyenkonun Azərbaycan-Rusiya münasibətlərinin inkişafında rolunu yüksək qiymətləndirib. Görüşdə ikitərəfli əməkdaşlıq, parlamentlər arasında qarşılıqlı fəaliyyətlə bağlı bir sıra məsələlərə dair fikir mübadiləsi aparılıb.

Milli Məclisin sədri Oqtay Əsədov V.Matviyenkoya Azərbaycan parlamentinin 100 illik yubileyinə həsr edilmiş xüsusi medal və Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Məclisinin Fəxri medalına təqdim edib.

Görüşdə Milli Məclis Aparatının rəhbəri Səfa Mirzəyev, MDB Parlamentlərarası Assambleyası Şurası baş katibinin müavini Aydın Cəfərov, Milli Məclisin deputatları Əli Hüseynli, Adil Əliyev, Rusiya Federal Məclisi Federasiya Şurası sədrinin müavini İlyas Umaxanov, Federasiya Şurasının üzvü Vladimir Cabarov, MDB PA Şurasının baş katibi Dmitri Kobitski iştirak ediblər.

# "Qanın milliyyəti yoxdur"

## Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə Moskvada xeyriyyə aksiyası keçirilib



**Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə aprelin 18-də Moskvada "Qanın milliyyəti yoxdur" adlı xeyriyyə aksiyası keçirilib.**

AZƏRTAC xəbər verir ki, Rusiya Azərbaycanlı Gənclər Birliyinin (RAGB) təşkilatçılığı və İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin dəstəyi ilə keçirilən aksiya İ.M.Seçenov adına Moskva Tibb Akademiyasının kliniki transfuziologiya və hematologiya kafedrasında baş tutub.

Bu il də aksiyaya azərbaycanlı tələbələrlə yanaşı, Rusiya paytaxtında təhsil alan digər millətlərdən olan tələbələr qoşulub.

Rusiya Azərbaycanlı Gənclər Birliyinin İdarə Heyətinin üzvü, tibb elmləri namizədi Samir Əliyev jurnalistlərə bildirib ki, RAGB-nin sədri Leyla Əliyevanın təşəbbüsü ilə bu aksiya artıq 10-cu ildir ki, keçirilir.

Samir Əliyev qeyd edib ki, xeyriyyə aksiyasının donorları qan verərkən həm öz sağlamlıqları barədə məlumat əldə edir, həm də qana ehtiyacı olan insanlara yardım göstərirlər.

Birinci Moskva Dövlət Tibb Universitetinin Qan Mərkəzinin rəhbəri, tibbi elmləri doktoru, professor Əliheydər Rəhimov Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə keçirilən bu aksiyanın artıq ənənə halı aldığını vurğulayaraq deyib: "İl ərzində RAGB tərəfindən bir neçə dəfə qanvermə aksiyaları təşkil olunur. Bu xeyriyyəçilik aksiyasının təşkilinə görə, Qan Mərkəzi kollektivi adından Leyla Əliyevaya təşəkkürümü bildirmək istəyirəm".

"Qanın milliyyəti yoxdur" aksiyası təkcə Moskvada deyil, Rusiyanın başqa regionlarında da təşkil edilir. Hər il bu aksiyada minlərlə gənc iştirak edir.

## YAP: 14 yaşlı qıza hücum edən şəxs partiyanın üzvü deyil

Azərbaycan Xalq Cəbhəsi Partiyası (AXCP) sədrinin müavini Fuad Qəhrəmanlının 14 yaşlı qızına hücum edən Tural Qarayevin Yeni Azərbaycan Partiyasının (YAP) üzvü olması barədə sosial şəbəkələrdə yayılan məlumat həqiqətə uyğun deyil. Bu barədə Trend-ə YAP-dan məlumat verilib. Qeyd olunur ki, T.Qarayevin YAP-a heç bir aidiyyatı yoxdur. Bu cür yalan məlumat məqsədli şəkildə yayılır və bu yolla partiyanın nüfuzuna xələl gətirməyə çalışırlar.

Qeyd edək ki, T.Qarayev hüquq mühafizə orqanları tərəfindən saxlanılıb və onun əməllərinə hüquqi qiymətı məhkəmə verəcək.

# Bakı Dövlət Universitetində SOCAR istiqrazları və “İqtisadiyyat 2.0” mövzusunda konfrans







**Aprelin 18-də Bakı Dövlət Universitetində (BDU) SOCAR istiqrazları və "İqtisadiyyat 2.0" mövzusunda konfrans keçirilib.**

AZƏRTAC xəbər verir ki, BDU və SOCAR Capitalın birgə təşkilatçılığı ilə keçirilən tədbiri açan rektor Elçin Babayev SOCAR-ın fəaliyyətindən, həyata keçirdiyi yerli və beynəlxalq səviyyəli layihələrdən danışıb, qurumun həm də elmi-tədqiqat işləri ilə məşğul olan şirkət kimi çoxşaxəli işlər gördüyünü qeyd edib. O, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən tədbirlərin uğurlu nəticələrini, innovativ inkişaf xəttini diqqətə çatdırıb. Rektor innovasiyalar, startaplar və elmi nəticələrin kommersiyalaşdırılmasından danışıb, qısa müddət ərzində regionda həm də elm, təhsil sahəsində liderə çevrilməklə bağlı fikirlərini bölüşüb.

BDU-nun SOCAR-la əlaqələrini, universitetdə keçirilən əmək yarmarkasında şirkətin müxtəlif qurumlarının aktiv iştirakını vurğulayan rektor konfransın işinə uğurlar arzulayıb və tələbələr üçün faydalı olacağını bildirib.



SOCAR-ın kadr, rejim və informasiya texnologiyaları üzrə vitse-prezidenti Xalik Məmmədov Prezident İlham Əliyevin tapşırıqlarını rəhbər tutan SOCAR-ın beynəlxalq səviyyəli şirkətə çevrilməsi istiqamətində həyata keçirdiyi layihələr haqqında məlumat verib. Gənclərin əks-əriyyətinin SOCAR-da işləmək istəyindən danışaraq öz ixtisasına yüksək səviyyədə yiyələnmiş, ali təhsilli gənclərə hər zaman ehtiyac olduğunu vurğulayıb. O, SOCAR-ın tələbələr üçün həyata keçirdiyi xarici və daxili təqaüd proqramları haqqında məlumat verib, bu layihələrin qalibi olmuş məzunların qurumun idarə və müəssisələrində müsabiqədənkənar işlə təmin olunduğunu vurğulayıb. Bugünkü tədbirdə iştirak edən tələbələrin SOCAR-ın yaratdığı imkanlardan yararlanacağını deyən Xalik Məmmədov təhsillərini başa vurduqdan sonra onların SOCAR ailəsinin üzvünə çevriləcəyinə əmin olduğunu bildirib.

SOCAR-ın maliyyə bazarları üzrə baş məsləhətçisi Əli Ağaoğlu ”İqtisadiyyat 2.0” mövzusunda təqdimat edib. O, təqdimatının birinci hissəsində SOCAR istiqrazlarının buraxılışı zamanı maliyyə bazarlarında həyata keçirilən mütərəqqi addımlar, istiqrazların xüsusiyyətləri, təkrar bazar əməliyyatları, korporativ istiqraz bazarındakı payı və Azərbaycan iqtisadiyyatına töhfələri barədə məlumat verib. Ə.Ağaoğlu təqdimatının ikinci hissəsində qlobal iqtisadi proseslər, dünya iqtisadiyyatındakı mövcud və gələcək tendensiyalar, qloballaşma prosesinin trayektoriyası, gələcəkdə üstünlük veriləcək fəaliyyət sahələri, ümumilikdə, növbəti 10 il üçün proqnozlaşdırılan iqtisadi mənzərə barədə auditoriyanı məlumatlandırıb.

Tələbələrlə interaktiv ünsiyyət şəraitində baş tutan təqdimatda beynəlxalq miqyasda qəbul olunan və güclü meyil göstərilən biznes trendlərinin mahiyyəti, rəqabətədavamlı professional kadrlara tələbatın hər il daha da artması və gələcəyin biznes-məşğulluq mühitinin elmi inkişafın nəticəsindən asılı olaraq formalaşacağı diqqətə çatdırılıb.

Tədbirin sonunda müzakirələrdə fəal iştirak edən beş tələbəyə SOCAR-ın sertifikatları və hədiyyələr təqdim edilib.

## Əməkdaşlıq əlaqələri genişlənir



Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası (DİA) ilə Türkiyənin Xaricdəki Türklər və Əqrəba İcmaları İdarəsi arasında əməkdaşlıq protokolu imzalanıb.

AZƏRTAC xəbər verir ki, sənəd DİA-nın rektoru, akademik Urxan Ələkbərov və Türkiyənin Xaricdəki Türklər və Əqrəba İcmaları İdarəsinin sədri Abdullah Eren tərəfindən Ankarada imzalanıb.

Tərəflər əməkdaşlığın qarşılıqlı olaraq böyük fayda gətirəcəyinə əmin olduqlarını bildiriblər.

DİA-nın elmi-təşkilat və beynəlxalq əlaqələr şöbəsinin müdiri, dosent Rəcəb Rəhimli imzalanma mərasimində iştirak edib.

## ABŞ növbəti görüşü Vaşinqtonda keçirməyi təklif edib

ABŞ Azərbaycan və Ermənistan Xarici İşlər Naziriyi (XİN) rəhbərlərinin Dağlıq Qarabağ münaqişəsinin nizamlanması üzrə növbəti görüşünü Vaşinqtonda keçirməyi təklif edib. Görüş təklifi barədə Azərbaycanın XİN rəhbəri Elmar Məmmədyarov bildirib.

XİN rəsmisi daha öncə Moskvada rusiyalı həmkarı Sergey Lavrov, eləcə də ATƏT-in Minsk qrupu həmsədrlərinin iştirakı ilə Ermənistan XİN rəhbəri ilə keçirilən sonuncu görüşü də xatırlayıb. Nazir deyib: “Deməl olar ki, 30 ildir davam edən Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı bizim səylərimizi diqqətə çatdırdım və qeyd etdim ki, biz bu məsələdə irəliləyişə nail olmalıyıq. Dünən ABŞ tərəfindən Vaşinqtona səfər etmək təklifi aldıq, burada da Dövlət katibi bu münaqişənin nizamlanmasına nail olmaq yolunda öz təkliflərini səsləndirəcək”.

# “Azərbaycan tarixinin fəlsəfi dərki və müasir dövr”



**Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Fəlsəfə İnstitutunda "Azərbaycan tarixinin fəlsəfi dərki və müasir dövr" mövzusunda dəyirmi masa keçirilib. Tədbir Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyevin "Tariximizin xanlıqlar dövrünün siyasi irsi sənədlər işığında" kitabının müzakirəsinə həsr olunub.**

AZƏRTAC xəbər verir ki, dəyirmi masanı institutun direktoru, fəlsəfə üzrə elmlər doktoru, professor İlham Məmmədzadə açaraq akademik Ramiz Mehdiyevin son illərdə Azərbaycan tarixinin aktual dövrlərinə - Şah İsmayıl Xətai, Nadir şah Əfşar, Azərbaycan Xalq Cümhuriyyəti-İran diplomatik münasibətləri, Dağlıq Qarabağ və digər mövzulara həsr olunmuş kitablarının çapdan çıxdığını söyləyib. Qeyd edib ki, akademikin sözügedən əsərlərində Azərbaycan tarixinin mahiyyəti araşdırılıb, onun məna və məzmunu üzə çıxarılıb, həmçinin elmi dövriyyəyə nadir tarixi sənədlər, yeni mənbələr daxil edilib.

”Tariximizin xanlıqlar dövrünün siyasi irsi sənədlər işığında” kitabında müəllifin xanlıqların taleyini təfərrüatı ilə təsvir etdiyini deyən professor İlham Məmmədzadə bildirib ki, əsərdə, həmçinin ermənilərin çar Rusiyası tərəfindən Azərbaycan ərazilərinə köçürülməsi erməni tarixçilərin əsərlərindən faktlar gətirilməklə oxucuya təqdim olunur. Kitabda tədqiqatçılara tövsiyələr verilir, tarixi araşdırmaların necə aparılmalı olduğu, tarixi material və mənbələrin hansı rol oynadığı, tarixi geosiyasi münasibətləri dərk etməyin nə qədər vacib olduğu izah edilir. Əsərin filosoflar üçün qiymətli mənbə olduğunu deyən professor İlham Məmmədzadə fəlsəfi ümumiləşdirmə və yanaşmalarla Azərbaycan tarixinin müxtəlif dövrlərini anlamaq və onun mahiyyətini aşkar etməyin mümkün ola biləcəyini vurğulayıb.

Daha sonra institutun elmi işlər üzrə direktor müavini, fəlsəfə üzrə fəlsəfə doktoru, dosent Eynulla Mədətlinin ”Azərbaycan tarixinin fəlsəfi dərki və müasir dövr” və fəlsəfə üzrə elmlər doktoru, professor Rəna Mirzəzadənin ”Xanlıqlar institutunun siyasi-ideoloji xəritəsi yazılan sənədlərdə” mövzularında məruzələri dinlənilib.

Tədbirdə, həmçinin Milli Məclisin deputatı Qənirə Paşayeva, AMEA-nın İctimai Elmlər Bölməsinin akademik-katibi, akademik Nərgiz Axundova, Fəlsəfə İnstitutunun ümumi işlər üzrə direktor müavini Qabil Camalov, fəlsəfə elmləri doktorları - Füzuli Qurbanov, Əlikram Tağıyev, Arif Bünyadov və fəlsəfə üzrə fəlsəfə doktoru Faiq Ələkbərli çıxış edərək xanlıqlar dövrünün Azərbaycan tarixində mühüm yer tutduğunu söyləyib, əsərdə sənədlərdən və tarixi məxəzlərdən istifadə olunmasını yüksək qiymətləndiriblər. Bundan əlavə, SSRİ dövründə Azərbaycan tarixinin təhrif edildiyi bildirilib, nəşrin tarixi həqiqətləri üzə çıxarması, cəmiyyətin, xüsusilə də gənclərin maarifləndirilməsi baxımından önəmi qeyd edilib.

Vurğulanıb ki, akademik Ramiz Mehdiyevin tədqiqatları, dərin məntiqə söykənən fikir və mülahizələri, dəyərli tövsiyələri, həmçinin tədqim etdiyi qiymətli sənədlər xanlıqlar dövrünə aid bir çox yanlış yanaşma və şərhləri aradan qaldırmağa imkan yaradacaq. Bununla yanaşı, Azərbaycan tarixşünaslığında, ictimai fikrində məsələyə münasibətdə daha sistemli və obyektiv baxışın formalaşmasına təkan verəcək.

# SOCAR-ın təlim-tədris m
# nüfuzunun artmasınd

**Qloballaşma fonunda cəmiyyətin formalaşdırdığı intellektə və biliklərə söykənən müasir dövrdə hər bir ölkənin sosial-iqtisadi və mədəni inkişafı onun malik ola biləcəyi səmərəli təhsil sistemindən asılıdır. Hazırda əmək bazarında rəqabətədavamlı yüksək ixtisaslı kadrlara yaranan və gündən-günə artan tələbatı ödəmək qabiliyyətinə malik yeni tip pilləli təhsil komplekslərinin yaradılması ən vacib məsələ kimi ön plana çəkilir.**

Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 19 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”nın həyata keçirilməsinə dair Fəaliyyət Planına uyğun olaraq peşə təhsili müəssisələri şəbəkəsinin rasionallaşdırılması prosesi bu müəssisələrin birləşdirilməsi və müəyyən peşə istiqamətləri üzrə ixtisaslaşmış peşə təhsili mərkəzlərinin yaradılması yolu ilə həyata keçirilir. Regionda həyata keçirilməkdə olan layihələr və perspektivlər SOCAR-ın daxilində və onun fəaliyyət dairəsindən kənarda texniki peşə hazırlığı sistemində köklü dəyişikliklərin aparılmasını, eləcə də Şirkətin təlim mərkəzlərində kadr hazırlığı keyfiyyətinin yüksəldilməsini və müasir dövrün tələblərinə cavab verən konseptual yanaşmaların tətbiqini zəruri edib.

Azərbaycanda texniki-peşə təhsilinin inkişaf tarixinin təhlili göstərir ki, bu təhsil pilləsi cəmiyyətin müxtəlif inkişaf mərhələlərində formalaşaraq tarixi bir yol keçmiş və respublika iqtisadiyyatının bütün sahələrinin ixtisaslı fəhlə kadrlarına olan tələbatının ödənilməsində mühüm rol oynayıb. Neft, qaz və neft-kimya sənayesində kadr potensialının möhkəmləndirilməsi, idarə və müəssisələrdə beynəlxalq standartlar əsasında peşə fəaliyyətinin yüksək səviyyədə təşkili, habelə sənayedə ixtisaslı fəhlə-texnik kadrlarının hazırlanması ilə əlaqədar SOCAR-ın prezidenti Rövnəq Abdullayevin 2011-ci il 30 iyun tarixli əmri ilə Şirkətin birbaşa nəzdində fəaliyyət göstərən Təlim, Tədris və Sertifikatlaşdırma İdarəsi (TTSİ) yaradılıb. 2005-ci ildən etibarən innovativ texnologiyaların tətbiqinə, təlim-tədrisin müasir metodlarla idarə olunmasına və irimiqyaslı təhsil proqramlarına dəstək göstərən SOCAR rəhbərliyi bu idarənin maddi-texniki bazasının inkişafını və ixtisaslı kadrlarla təminatını diqqət mərkəzində saxlayıb. Peşə təlimi prosesində və sertifikatlaşdırma sahəsində ayrı-ayrı yeniliklərin nəinki SOCAR-ın struktur bölmələrində, eləcə də ölkəmizin digər sənaye müəssisələrində tətbiqi idarənin strateji hədəflərinə xidmət edir.





SOCAR-ın müəssisələrinin, kənar təşkilatların və fiziki şəxslərin sifarişləri əsasında Təlim, Tədris və Sertifikatlaşdırma İdarəsi tərəfindən həyata keçirilən kadr hazırlığı geniş bir proses olaraq ayrı-ayrı mərhələləri özündə əks etdirir. Ehtiyac duyulan mühəndis-texniki ixtisaslar üzrə təlim sifarişlərinin verilməsi, təlim planları və proqramlarının hazırlanması, təlimlərin keçirilməsi, tədrisin keyfiyyətinə nəzarətin aparılması ilə bərabər, işçilərin ixtisasartırma, yenidən hazırlanma və ikinci peşəyə yiyələnmə kurslarında iştirakının təşkili, onların bilik səviyyələrinin yoxlanılması, işçilərin vəzifədə irəli çəkilməsi üçün attestasiyaların keçirilməsi, vəzifə təlimatlarının və peşə standartlarının hazırlanması, ölkə daxilində və xaricində keçirilən təlimlərdə və seminarlarda təcrübə mübadiləsi və s. kadr hazırlığı işinin tərkib elementləridir.

Beş təlim mərkəzindən, qaynaq sexlərindən və sınaq laboratoriyalarından ibarət olmaqla Təlim, Tədris və Sertifikatlaşdırma İdarəsi SOCAR-ın idarə və müəssisələrinin ixtisaslı fəhlə kadrları ilə təmin olunması və mühəndis-texniki işçilər üçün təlim kurslarının keçirilməsi ilə əsasən 2 istiqamətdə kadr hazırlığı işini təşkil edir. SOCAR-ın tərkibində neft, qaz və neft-kimya sənayesində müxtəlif peşələr üzrə ixtisaslı fəhlə kadrları hazırlayan təlim-tədris mərkəzləri ölkəmizin peşə təhsilinin nüfuzunun artmasında mühüm rol oynayır. Bu təlim mərkəzlərində təhsil alan dinləyicilərə aylıq təqaüdün verilməsi, gündəlik naharın və xüsusi geyim formalarının təmin edilməsi və SOCAR-ın müəssisələrində istehsalat təcrübəsinin təşkili digər təlim qurumları ilə müqayisədə üstün cəhətlər hesab olunur.

**Kadr Hazırlığının Təşkili Mərkəzində (KHTM)** dinləyicilərə 6 müxtəlif istiqamətdə - ixtisasartırma, yenidən hazırlanma, ikinci peşəyə yiyələnmə, maarifləndirmə, təlimatlandırma kursları və yeni fəhlə kadrlarının hazırlanması istiqamətində 400-ə qədər ixtisaslar üzrə təlimlər təşkil olunur. Mərkəzin yeni mühəndis təlim korpusunda SOCAR-ın mühəndis-texniki işçiləri üçün müxtəlif istiqamətlərdə təkmilləşdirmə kursları (metrologiya, texnologiya, mexanika, energetika, idarəetmə, SƏMTTE, informasiya texnologiyaları, qaynaq mühəndisliyi, qeyri-destruktiv müayinə, emal, avtomatik idarəetmə sistemləri/PLC, neft-qaz hasilatı, qazma, geologiya) təşkil olunur.

Neft-qaz, neft-kimya və digər əlaqədar sektorlarda sağlamlıq, əməyin mühafizəsi, ətraf mühit və iş yerlərində texniki təhlükəsizliyin idarə edilməsi üçün Böyük Britaniyanın Sağlamlıq və Əməyin Təhlükəsizliyi İnstitutunun (IOSH) “Təhlükəsiz idarəetmə” təlim kursunun istehsalat proseslərinə tətbiqinin əhəmiyyətini nəzərə alaraq, SOCAR-ın strukturuna daxil olan bütün müəssisə və təşkilatlarda əməyin mühafizəsi və təhlükəsizlik texnikası (ƏMTT) sahəsində fəaliyyət göstərən əməkdaşların və istehsalata bilavasitə cavabdeh olan rəhbər işçilərin beynəlxalq standartların tələblərinə uyğun olaraq ƏMTT üzrə hazırlıq səviyyəsinin artırılması üçün KHTM-də 4 mərhələli ingilis dili kursları təşkil edilir. Sözügedən kursları bitirdikdən sonra mütəxəssislər “Təhlükəsiz idarəetmə” üzrə beynəlxalq təlimə cəlb olunacaqlar. Bu məqsədlə SOCAR-da işləyən 1190 nəfər mütəxəssis üçün “Təhlükəsiz idarəetmə” proqramı əsasında hazırlanmış ƏMTT kursları təşkil olunur. Dərslər 2 istiqamətdə - nəzəri və praktiki formada keçirildikdən sonra dinləyicilər həm praktiki, həm də nəzəri imtahan verərək müvafiq sertifikata layiq görülürlər. Bu beynəlxalq kursun təşkili iş yerlərində risklərin azaldılmasına, işlərin təhlükəsiz şəkildə idarə edilməsinə, qəza araşdırmalarının həyata keçirilməsinə, iş rejimində təhlükələrin müəyyən edilməsinə və təshihedici tədbirlərin yerinə yetirilməsinə zəmin yaradır.

2017-ci ildən etibarən FHN Sənayedə İşlərin Təhlükəsiz Görülməsi və Dağ-Mədən Nəzarəti Dövlət Agentliyi tərəfindən razılaşdırılmış tədris plan-proqramına əsasən, SOCAR-ın müəssisələrində təhlükəli yüklərin qəbulu və yola salınması sahəsində işləyən mütəxəssislər üçün xüsusi risk qrupuna aid kurslar təşkil olunur. Kursda əsasən dinləyicilərə təhlükəli yüklərin daşınması, yüklərin boşaltma və saxlanma prosesində ətraf mühitə zərər vura bilən, partlayışa, yanğına və ya nəqliyyat vasitələrinin, qurğuların, binaların zədələnməsinə, habelə insanların və heyvanların məhvinə, xəsarət almasına, zəhərlənməsinə, yanmasına, şüalanmasına və yaxud xəstələnməsinə səbəb olan maddələr və.s. mövzular haqqında məlumat verilir.

Eyni zamanda, SOCAR-ın müəssisələrində çalışan qeyri-destruktiv müayinə (NDT) mütəxəssisləri üçün “Ultrasəs müayinə metodu”, “Penetrant müayinə metodu”, “Rentgen müayinə metodu”, “Maqnit müayinə metodu” beynəlxalq standartı üzrə kurslar, habelə mühəndis-texniki işçilər üçün “Tullantıların idarə olunması”, “Qazma işləri aparılan zaman ətraf mühitə təsir edən tullantıların idarə olunması”, “SOCAR-ın ekoloji siyasəti” və digər mövzularda təlimatlandırma kursları keçirilib.

2018-ci ildən etibarən KHTM-in sifarişi əsasında İTRİ-də SAP proqramı əsasında SAP MM-”Materialların idarə edilməsi modulu”, SAP Fİ - “Maliyyə uçotu modulu”, SAP SD - “Satış və çatdırılma modulu”, SAP PM - “Texniki xidmət və təmir modulu”, SAP OPENTEXT - “Elektron Sənəd Dövriyyəsi Sistemi”, SAP HR - “İnsan Resursları funksiyalarının tənzimlənməsi” və SAP PS - “layihələrinin idarə olunması modulu” üzrə kurslar təşkil olunur. Həmçinin, Bakı Ali Neft Məktəbinin bütün tələbələrinə idarəetmə sisteminin düzgün qurulması, şirkətlə işçi arasında vəhdət və münaqişələrin həll edilməsi, etik qərar qəbulu prosesi, özünü qiymətləndirmə, komandada işləmə bacarığı, fəaliyyətin monitorinqi, təşəbbüskarlıq və novatorluq bacarığı, işçi həyəti ilə ünsiyyətin düzgün qurulması məqsədilə 252 nəfər üçün “Peşə etikası” kursları təşkil olunub. Cari ilin oktyabr-noyabr ayında bu tələbələr üçün “Liderlik” kursunun keçirilməsi nəzərdə tutulur.

2018-ci ilin may ayında SOCAR-ın Təlim, Tədris və Sertifikatlaşdırma İdarəsi tərəfindən ayrı-ayrı peşələr və ixtisaslar daxilində tədris edilən kursların yekun göstəricisi olaraq **100000-ci Sertifikat** “Müasir elektron ölçü vasitələrinin ölçü qovşaqlarının və standartlarının tətbiqi” ixtisasartırma təlim kursu üzrə təhsil alan “Azneft” İstehsalat Birliyinin 28 May NQÇİ-nin İstehsalat proseslərinin avtomatlaşdırılması üzrə xidmət sahəsinin böyük mühəndisi Aftil Əliyevə təqdim edilib.

KHTM-də 2018-ci il ərzində 5609 nəfər dinləyici kursları bitirib və attestasiyadan keçib.

**Dənizdə İnsan Həyatının Mühafizəsi üzrə Təlim Mərkəzində (DİHMÜTM)** Beynəlxalq Dəniz Təşkilatının (IMO) “Dənizdə insan həyatının mühafizəsi” üzrə Beynəlxalq Konvensiyasının (SOLAS-74), “Dənizçilərin hazırlanması, onlara sertifikatların (diplomların) verilməsi və növbə çəkmə”yə dair Beynəlxalq Konvensiyasının (STCW-78) və “Dəniz neft-qaz qurğularının heyətlərinin hazırlanmasına dair Tövsiyə” adlı Qətnaməsinin (Qətnamə A.891 (21)), Dəniz Neft-Qaz Sənayesi üzrə Təlim Təşkilatının (OPITO) standartlarının, və Beynəlxalq Dəniz Podratçıları Assosiasiyasının (IMCA) tələblərinə uyğun olaraq 46 adda yenidən hazırlanma, təlimatlandırma, maarifləndirmə, təkmilləşdirmə və ixtisasartırma kurslarının tədrisi və təlimlərin təşkili həyata keçirilir.

DİHMÜTM-də praktiki təlimlər ixtisaslaşmış hovuz təlim kompleksində, dəniz akvatoriyasında yerləşən və müxtəlif tipli kollektiv xilasetmə vasitələri ilə (sürətli və sürətli olmayan xilasedici qayıqlar) təchiz edilmiş sağqalma üzrə xilasedici təlim bloklarında, xilasedici və sürətli qayıqlarda, xilasedici sallarda, müvafiq yanğın qurğuları, tüstü labirintləri və yanğınla mübarizə trenajorları ilə təchiz olunmuş yanğın təlim poliqonunda; dalğıc kompleksində, dalğıclar üçün nəzərdə tutulmuş barokamerada, dalğıc sinfində və inzibati binada yerləşən tibb trenajorunda aparılır.

Dənizdə insan həyatının mühafizəsi üzrə təlim mərkəzi Böyük Britaniyanın Neft Sənayesi sahəsində Dəniz Təlim Təşkilatının (OPITO) stolüstü və sahə auditi prosedurlarını müvəffəqiyyətlə başa vuraraq Dənizdə təhlükəsizlik texnikasının



# ərkəzləri peşə təhsilinin a mühüm rol oynayır

əsasları və fövqəladə hallar şəraitində hazırlıq üzrə təlim (BOSIET), batmaqda olan helikopterdən təxliyə üzrə təlim (HUET) və dənizdə fövqəladə hallarda davranış üzrə təkrar təlim (FOET) kurslarının keçirilməsi üçün akkreditasiya edilib və Xəzər dənizi regionunda təlim xidmətlərinin təminatçısı kimi OPITO şəbəkəsinin azsaylı üzvlərindən birinə çevrilib. OPİTO akkreditasiyası SOCAR-ın dəniz neft-qaz platformalarında və qurğularında çalışan məsul işçi heyətinin və kənar təşkilatların mütəxəssislərinin sağlamlıq, təhlükəsizlik texnikası, əməyin mühafizəsinin idarə edilməsi, habelə istehsalat obyektlərində qəza və qəzaya yaxın vəziyyətlərdə və risklərə nəzarət sahələrində mövcud ehtiyaclarının təmin olunmasına xidmət edir. DİHMÜTM-də keçirilən BOSIET təlim kursunu uğurla bitirmiş 600-dən çox dinləyici artıq OPITO-nun məlumat bazasına daxil edilib.

SOCAR-ın regionda həyata keçirdiyi irimiqyaslı layihələr çərçivəsində dəniz istehsalat obyektlərində dalğıc əməliyyatlarını yerinə yetirən işçilərin peşə hazırlığı baxımından Təlim, Tədris və Sertifikatlaşdırma İdarəsi dünyanın 1000-dən çox şirkətini, o cümlədən neft-qaz şirkətlərini, podratçıları, təchizatçıları, dənizdə bərpa oluna bilən enerji mənbələrini təmin edən qurumları, çoxsaylı qeyri-hökumət təşkilatlarını öz ətrafında birləşdirən və IMO-da məşvərətçi statusuna malik olan Beynəlxalq Dəniz Podratçıları Assosiasiyasının (IMCA) Dalğıc kateqoriyası üzrə təlim qurumu qismində üzvlüyünə qəbul edilib.

DİHMÜTM-də 2018-ci il ərzində 3661 nəfər dinləyici kursları bitirib və attestasiyadan keçib.

Qaradağ rayonu və ətraf ərazilərdə yaşayan vətəndaşların peşə təhsili ehtiyaclarının təmin edilməsi məqsədilə 2013-cü ildən etibarən **Qobustan Regional Təlim Mərkəzi (QRTM)** fəaliyyət göstərir ki, bu mərkəzdə fənn kabinələri (nəzəri otaqlar və emalatxanalar) ən müasir avadanlıqlarla komplektləşdirilmiş və beynəlxalq standartların tələblərinə cavab verən qaynaq emalatxanası yaradılıb. Mərkəzdə qazma simulyatoru, kran simulyatoru, karotajçıların hazırlanması üçün VEBER-1 stansiyası, hasilat simulyatoru, kimyəvi analiz laboratoriyaları, 3-D qaynaq simulyasiya aparatları və PLC (proqramlaşdırıla bilən məntiqi kontroller) otağı qurulub.

Həmçinin, ötən dövrdə QRTM 1878-ci ildə Böyük Britaniyada əsası qoyulan, dünyanın 6 regionunda (Avropa, Yaxın Şərq, Asiya, Sakit Okeanı, Afrika, Amerika) 100-dən çox ölkədə 1300 nəfərlik işçi heyətindən və 200 nəfərlik təlim məsləhətçi şəbəkəsindən ibarət olmaqla, 350-dən çox işəgötürəni öz ətrafında birləşdirən, sənayenin 28 sektorunda 600 ixtisas üzrə ildə təxminən 1000000 sertifikat təqdim edən və hazırkı dövrədək 10000-dən çox təlim mərkəzini akkreditasiya edən qlobal səviyyədə nüfuza malik City & Guilds Group Kvalifikasiya qurumu **(The City and Guilds of London Institute)** tərəfindən akkreditasiya edilib, eləcə də Mərkəzin tədris etdiyi 3 ixtisas (Avadanlıqlara texniki xidmət; Qaynaq-quraşdırma; Elektrik-elektronika) beynəlxalq təşkilat tərəfindən tanınıb.

Mərkəzdə təhsil almış şagirdlərin arasında Heydər Əliyev Fondunun dəstəyi ilə uşaq evlərindən gələn gənclər də vardır ki, onlara SOCAR rəhbərliyi tərəfindən xüsusi qayğı ilə yanaşılır. Yeri gəlmişkən, bugünədək uşaq evlərindən gələn 113 nəfər gənc İdarənin təlim kurslarını başa vurduqdan sonra iş və ev ilə təmin olunub.

QRTM-də 2018-ci il ərzində 113 nəfər dinləyici kursları bitirib və attestasiyadan keçib.

**Sumqayıt Təlim, Tədris Mərkəzi (STTM)** Sumqayıt şəhərində yerləşən "Azərikimya" İB-nin və digər müəssisələrin kadr hazırlığına olan tələbatını ödəyir. 2017-ci ildə Mərkəzdə Yaponiyanın tanınmış "Yokogawa Electric Corporation" şirkətinin (Yokogawa Electric CİS Ltd - MDB ölkələri üzrə baş ofisi) dəstəyi ilə müasir avtomatik idarəetmə sistemləri üzrə təlim otağı qurulub ki, bu da avtomatik idarəetmə sistemləri, proqram təminatı, CENTUM və ProSafe sistemləri üzrə təlimlərin keçirilməsi üçün nəzərdə tutulub. Burada əsas məqsəd Azərbaycanda avtomatika və nəzarət-ölçü cihazları sahəsində ən son texnologiyaların tətbiqi və yerli mütəxəssislərin bu sahələr üzrə biliklərinin artırılmasıdır.

STTM-də 2018-ci il ərzində 504 nəfər dinləyici kursları bitirib və attestasiyadan keçib.

Ümumiyyətlə, İdarənin təlim mərkəzlərində OHSAS 18001 "Əməyin mühafizəsi və təhlükəsizlik texnikası idarəetmə sistemi", İSO 9001:2015 "Keyfiyyət idarəetmə sistemi", İSO 14001:2015 "Ekologiya idarəetmə sistemi", İSO 31000 "Risklərin idarə edilməsi sistemi", İSO 50001:2009 "Enerji idarəetmə sistemi", İSO/İEC 27001:2013 "İnformasiya təhlükəsizliyi", İSO 17024 "Personal sertifikatlaşdırılmasını həyata keçirən müəssisələr üçün ümumi kriteriyalar" və İSO 17025 "Sınaq və kalibrasiya laboratoriyalarının bacarıqlılığı üçün ümumi şərtlər" beynəlxalq standartları üzrə kurslar təşkil olunur.





2017/2018-ci tədris ili üzrə SOCAR-ın müəssisə və təşkilatlarının sifarişinə uyğun olaraq 2017-ci ilin sentyabr ayından başlayaraq müvafiq Qəbul Komissiyası tərəfindən keçirilən imtahanın nəticələrinə əsasən Sumqayıt təlim, tədris mərkəzinə 7 ixtisas üzrə 60 şagird, Qobustan regional təlim mərkəzinə 10 ixtisas üzrə 86 nəfər şagird (4 nəfər uşaq evi) və Dənizdə insan həyatının mühafizəsi üzrə təlim mərkəzinə "I-II dərəcə iş qrupu üzrə IV dərəcəli dalğıc hazırlanması" ixtisasına 10 nəfər şagird qəbul edilib ki, onlar da imtahanları müvəffəqiyyətlə verərək sertifikatlara layiq görülüblər.

Bununla yanaşı, 2018/2019-cu tədris ili üzrə Qəbul Komissiyası tərəfindən keçirilən imtahanın nəticələrinə əsasən Sumqayıt təlim, tədris mərkəzinə 7 ixtisas üzrə 99 şagird (3 nəfər uşaq evi), Qobustan regional təlim mərkəzinə 5 ixtisas üzrə 57 nəfər şagird (1 nəfər uşaq evi) və Dənizdə insan həyatının mühafizəsi üzrə təlim mərkəzinə "I-II dərəcə iş qrupu üzrə IV dərəcəli dalğıc hazırlanması" ixtisasına 1 ixtisas üzrə 2 qrupda 20 nəfər şagird və Kadr hazırlığının təşkili mərkəzinə 4 ixtisas üzrə 38 nəfər şagird qəbul edilib.

**Qala Təlim, Tədris Mərkəzi (QTTM)** mühafizə işinin təkmilləşdirilməsi üzrə əsas təlim bazası olmaqla yanaşı, tədris proqramlarının keyfiyyətlə işlənib hazırlanmasına, şəxsi heyətin peşəkarlıq və mənəvi-psixoloji səviyyəsinin artırılmasına xidmət edir. QTTM-də yerləşən təlim obyektləri və sahələri mühafizə hazırlığının tələblərinə cavab verməklə yanaşı, müasir texnika və avadanlıqlarla təchiz olunub.



**FUAD SÜLEYMANOV,**
*SOCAR-ın Təlim, Tədris və Sertifikatlaşdırma İdarəsinin rəisi, Əməkdar mühəndis*

QTTM-də 2018-ci il ərzində 785 nəfər dinləyici kursları bitirib və attestasiyadan keçib.

Neft-qaz sənayesinin, tikintinin və nəqliyyatın ayrı-ayrı sahələrində metal konstruksiyaların hazırlanması, boru kəmərlərinin çəkilməsi üçün əsas texnoloji proseslərdən biri də qaynaq işləridir. SOCAR-da çalışan qaynaqçıların attestasiyası, sertifikatlaşdırılması, yeni işə qəbul olunacaq qaynaqçıların praktiki sınağı və s. bu kimi işlər TTSİ tərəfindən aparılır. Hazırda idarədə müxtəlif təşkilat, müəssisə və fərdi müraciətlər əsasında qaynaqçıların 7 müxtəlif metod üzrə (əllə elektrik qövs qaynağı, metal-qövs inert qaz qaynağı, metal-qövs aktiv qaz qaynağı, aktiv qoruyucu qazla bütöv tel metal qövs qaynağı, volfram inert qaz-qövs qaynağı, oksigen asetilen qaynağı və polietilen qaynağı) sertifikatlaşdırılması həyata keçirilir. Qaynaqçılara "SOCAR" və ya beynəlxalq "TÜRKAK" loqolu sertifikatlar təqdim olunur. Eyni zamanda, qaynaq tikişlərinin keyfiyyəti müxtəlif fiziki (radioqrafiya, ultrasəs, maqnit tozu və penetrant) və mexaniki (dartma, əymə, bərklik və zərbə özlülüyü) üsullarla yoxlanılır.

QİSŞ-də 2018-ci il ərzində 832 nəfər attestasiyadan keçib və işə qəbul üzrə peşə sınağına cəlb edilib.

Ümumilikdə, idarə üzrə 2018-ci il ərzində kursları bitirib və attestasiyadan keçmiş dinləyicilərin və şagirdlərin sayı 11504 nəfər olub.

Hazırkı dövrədək cəmi 106993 nəfər dinləyici (KHTM - 46987 nəfər, DİHMÜTM - 40761 nəfər, STTM - 4236 nəfər, QTTM - 6722 nəfər, QRTM - 1335 nəfər və QİSŞ - 6952 nəfər) idarənin təlim mərkəzlərində ayrı-ayrı istiqamətlərdə təlim kurslarına cəlb edilib və onların peşə bacarığı yoxlanılıb. Həmin 106993 nəfərin 7923 nəfəri 2011-ci ilə qədər, 99070 nəfəri isə 2011-ci ildən sonra keçirilən kurslarda, təlimlərdə və attestasiyada iştirak edib. Həmçinin, 2005-2018-ci illər üzrə yeni fəhlə kadrlarının hazırlanması kurslarını bitirmiş şagirdlərin sayı 2364 nəfər olub (KHTM - 836 nəfər, DİHMÜTM - 46 nəfər, STTM - 511 nəfər, QRTM - 971 nəfər).

İdarə "İSO 29990: 2010 Qeyri-formal təhsil və təlim üzrə öyrənmə xidmətləri - Xidmət göstərənlərə dair ilkin tələblər" beynəlxalq standartını tətbiq etməklə, sertifikatlaşdırmanı həyata keçirmiş olduğu müəssisənin daxili və xarici bazarda müsbət imicinin formalaşmasına, idarəetmədə daha müasir metodların istifadəsinə, sifarişçilərin tələblərinə uyğun olaraq sənədləşdirmə işlərinin aparılmasına, işlərin təhlükəsiz şəraitdə, ətraf mühitə ziyan vurmadan və keyfiyyətlə yerinə yetirilməsinə, uyğunsuzluqların vaxtında aşkar edilməsinə və aradan qaldırılmasına, komanda şəklində işləmək bacarığının təkmilləşdirilməsinə və davamlı sifarişçi-podratçı münasibətlərinin qorunub saxlanılmasına öz töhfəsini verir. Sertifikatlaşma sahəsində yerinə yetirilən irimiqyaslı işlərdən biri də SOCAR-ın müəssisələrində yeni İSO 9001:2015 Keyfiyyət İdarəetmə Sistemi və İSO 14001:2015 Ətraf Mühitin Mühafizəsinin İdarəedilməsi Sisteminin tətbiqinə metodiki dəstəyin göstərilməsindən ibarətdir.

2018-ci ildə Təlim, Tədris və Sertifikatlaşdırma İdarəsinin qaynaq mərkəzləri və sınaq laboratoriyaları DVS 1102 direktivinin tələbləri əsasında Technischer Überwachungs-Verein (TÜV) Thüringen e.V. şirkəti tərəfindən attestasiya edilib. Attestasiyanın yekunlarına əsasən, İdarədə fəaliyyət göstərən qaynaq emalatxanalarının qaynaqçıların hazırlanması üzrə texniki standartlara uyğunluğu təsbit olunub. Bundan başqa, idarə tərəfindən yeni fəhlə kadrlarının hazırlanması üzrə tədris olunan 33 ixtisas AZS standartı əsasında akkreditasiya edilib.

2018-ci ilin aprel ayında SOCAR-ın Nəqliyyat İdarəsi TTSİ-nin metodiki dəstəyi ilə ISO 39001:2012 "Yol hərəkətinin təhlükəsizliyini idarəetmə sistemi" üzrə sertifikata layiq görülüb. Bu sertifikatın Nəqliyyat İdarəsində tətbiq olunmasında başlıca məqsəd yollarda baş verə bilən qəzaların, maddi-mənəvi itkilərin minimuma endirilməsi və yol hərəkətinin təhlükəsiz idarə edilməsinin əməkdaşlara öyrədilməsindən ibarətdir.

Ötən dövr ərzində Təlim, Tədris və Sertifikatlaşdırma İdarəsi beynəlxalq təcrübənin öyrənilməsi, qabaqcıl təlim mərkəzləri ilə əməkdaşlığın möhkəmləndirilməsi məqsədilə əməkdaşların xarici ölkələrdə keçirilən təlimlərə cəlb edilməsini diqqət mərkəzində saxlayıb. Bu məqsədlə, idarənin 2 nəfər əməkdaşı Edil-Oral şirkəti tərəfindən elektrik və nəzarət-ölçü cihazları ilə işləyən mühəndis-texniki heyəti üçün təşkil olunan COMPEX (Ex-01-04) "Partlayış təhlükəli zonalarda elektrik və avtomatika avadanlıqlarının təhlükəsiz quraşdırılması, istismarı, təftişi" standartı üzrə kursda iştirak edib və sertifikatlara layiq görülüblər.

***Dinamik və uğurlu inkişafla bütün sahələrdə inamla irəliləyən ölkəmizdə kadr potensialının formalaşdırılmasına yönələn diqqət və qayğı kadr hazırlığı siyasətinin icra mexanizmlərində və metodlarında özünü büruzə verir. Respublikada yaradılan müasir idarəetmə modelinin məzmunu və strukturu inkişaf tendensiyalarına uyğun olaraq yeni formada və fəal metodlarla səciyyələnən təlim mexanizmləri vasitəsilə neft, qaz və neft-kimya sənayesində çalışan bilikli, təcrübəli və səriştəli mütəxəssislərin şəxsində təzahür edir. SOCAR daxilində kadrların hazırlanması prosesi təlim nəticələrindən, işçilərin peşəkarlıq səviyyəsindən, fərdi keyfiyyət göstəricilərindən, xidməti fəaliyyətin qiymətləndirilməsindən, biliklərin yoxlanılmasından və işçilərin öz karyeralarını inkişaf etdirmələrinə təsir göstərən digər amillərdən asılıdır ki, məhz buna görə kadr hazırlığı işi rəhbərlik tərəfindən daim diqqət mərkəzində saxlanılır.***

# Teatrların inkişafında mühüm mərhələ

Prezident İlham Əliyev aprelin 17-də "Azərbaycan teatrlarının inkişafı ilə bağlı tədbirlərin davam etdirilməsi haqqında" Sərəncam imzalayıb. Sərəncama əsasən Azərbaycan teatr ənənələrinin qorunub saxlanılması və dövrün tələblərinə uyğun inkişafı ilə bağlı tədbirlərin davam etdi-



rilməsi üçün 12 teatrın hər birinə 100 min manat vəsait ayrılıb. Bu bir daha sübut edir ki, dövlətimizin mədəniyyət sahəsinə diqqət və qayğısı davamlıdır. Sərəncamla bağlı "İki sahil" qəzetinə açıqlamalarında mədəniyyət və incəsənət xadimləri də bu məqamı xüsusi vurğuladılar.

**Cəfər Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram Teatrının direktoru, Əməkdar mədəniyyət işçisi İftixar Piriyev:**

- Prezident İlham Əliyevin "Azərbaycan teatrlarının inkişafı ilə bağlı əlavə tədbirlər haqqında", "Azərbaycan Dövlət Musiqili Teatrına və Azərbaycan Dövlət Rus Dram Teatrına "akademik" statusu verilməsi haqqında", "Azərbaycan Respublikasında teatr və konsert müəssisələri işçilərinin sosial müdafiəsinin gücləndirilməsi haqqında" sərəncamları mədəniyyət və incəsənət xadimləri tərəfindən rəğbətlə qarşılanıb. Şübhəsiz, dövlət başçısının aprelin 17-də imzaladığı "Azərbaycan teatrlarının inkişafı ilə bağlı tədbirlərin davam etdirilməsi haqqında" Sərəncam bu istiqamətdə atılan addımların məntiqi davamıdır. Bu Sərəncam rəhbərlik etdiyim teatra yeni zirvələr fəth etməkdə yardımçı olacaq. Yeri gəlmişkən, qeyd edim ki, bir müddət öncə Prezident İlham Əliyev "Bakı şəhərinin Binəqədi rayonunda İrəvan Dövlət Azərbaycan Dram Teatrının binasının əsaslı təmiri və yenidən qurulması işləri haqqında" Sərəncam da imzalayıb. Hazırda bu sənəd əsasında teatrımızın binasına yeni həyat verilir. Bu Sərəncamla isə teatrımıza 100 min manat vəsait ayrılıb.

Teatrımız da Prezidentin bu diqqətinə çox həssaslıqla yanaşır. Məsələn, bu günlərdə Türkiyənin Anadolu Aydınlar Ocağının medalı ilə təltif olunmuşam. Mən bu mükafatı vətənpərvərlik mövzusunda əsərlər səhnələşdirən, həmçinin saxta "erməni məsələsi"ndən qaynaqlanan mövzuları tamaşalar əsasında dünya ictimaiyyətinə çatdıran teatrımıza verilən yüksək dəyər kimi qiymətləndirirəm.



**Azərbaycan Dövlət "Yuğ" Teatrının direktoru, Əməkdar mədəniyyət işçisi İslam Həsənov:**

-Prezident İlham Əliyevin "Azərbaycan teatrlarının inkişafı ilə bağlı tədbirlərin davam etdirilməsi haqqında" 2019-cu il 17 aprel tarixli Sərəncamı kollektivimizdə sevinclə qarşılanıb. Bu sevincimizin üzərinə yeni sevinc əlavə edən isə Azərbaycan Dövlət "Yuğ" Teatrının da dövlət başçımızın diqqətindən kənarda qalması olub. Şübhəsiz, bu Sərəncam teatrımızın bir çox problemlərinin həllinə yardımçı olacaq.

İnanıram ki, heç bir teatra bənzəməyən, 2016-cı ildən etibarən Dövlət Kukla Teatrının binasında fəaliyyətini davam etdirən 30 yaşlı "Yuğ" Dövlət Teatrının yaradıcı inkişafı baxımından zəruri olan daha bir addım da atılacaq. Yəni teatrımızın yeni binası da inşa olunacaq.



**Qusar Dövlət Ləzgi Dram Teatrının direktoru, Əməkdar mədəniyyət işçisi Faiq Qardaşov:**

- Bu gün teatrlarımız yeni inkişaf yoluna qədəm qoyub. Bu prosesdə Prezident İlham Əliyevin xidmətləri misilsizdir. Belə ki, dövlət başçımızın təşəbbüsü ilə ölkəmizdə teatr sənətinin inkişafı ilə bağlı bir sıra mühüm addımlar atılıb.

Prezidentin növbəti Sərəncamı bir daha göstərdi ki, bölgələrdə fəaliyyət göstərən teatr ocaqlarımız da həmişə diqqət mərkəzindədir. Həmin Sərəncamla 9 bölgə teatrının hər birinə 100 min manat vəsait ayrılıb. Onlardan biri də bizim teatrımızdır. Bütün bunlar dövlətimizin bölgə teatrlarının inkişafına göstərdiyi diqqət və qayğının bariz nümunələridir. Teatr sənətinə göstərilən bu diqqət və qayğı isə bölgə teatrı kimi Qusar Dövlət Ləzgi Dram Teatrının gələcəyə daha nikbin baxmasına zəmin yaradır.

**Qvami Məhəbbətoğlu,**
***"İki sahil"***

# Mühəndislər üçün biznes təhsili



Bakı Ali Neft Məktəbi (BANM) və BP şirkətinin birgə əməkdaşlığı çərçivəsində ərsəyə gələn, artıq 3-cü dəfədir ki, həyata keçirilən "Mühəndislər üçün biznes təhsili" layihəsinin növbəti kursu başa çatıb.

Tədbirdə ali məktəbin rəhbərliyi, professor-müəllim və inzibati heyəti, tələbələr, BP-nin məsul şəxsləri iştirak ediblər. Həmçinin tədbirin mükafatlandırma mərasimindən əvvəl BP-nin Əlaqələr, xarici işlər və strategiya üzrə vitse-prezidenti Bəxtiyar Aslanbəyli regionda geosiyasət mövzusunda təqdimatla çıxış edib.

BANM-in 2018-ci il məzunu və hazırda "Baker Hughes, a GE" şirkətinin Azərbaycanda aparıcı sahə mühəndisi Emiliya Məmmədova isə tələbələrə ustad dərsi keçib.

"Mühəndislər üçün biznes təhsili" layihəsi mühəndis ixtisası üzrə təhsil alan 5-ci kurs tələbələri üçün keçirilib və BANM-dəki təhsil müddətində mühəndislik üzrə yüksək səviyyəli bilik və tətbiqi səriştəliklərə yiyələnmiş tələbələrə yeni proqram çərçivəsində, həm də menecment və biznes sahəsində geniş bilgilər verilib. Proqram məzunların müasir biznes mühitinə daha effektli inteqrə olunması üçün şərait yaradıb.

BANM-in rektoru Elmar Qasımov çıxışında qeyd edib ki, "Mühəndislər üçün biznes təhsili" layihəsinin həyata keçirilməsində əsas məqsəd gənc mühəndislərə ümumi biznes biliklərini, baza prinsipləri, liderlik keyfiyyətləri, layihələrin idarə edilməsi və bir sıra digər istiqamətdə biznes səriştə və biliklər haqqında modullar keçirilərək savadlı, intellektual kadrlara sahib olmaqdır.

Daha sonra BANM-in rektoru Elmar Qasımov ali məktəbin məzunu olmağa hazırlaşan 5-ci kurs tələbələri ilə görüşüb, onları "Mühəndislər üçün biznes təhsili" kursunu uğurla başa vurduqları üçün təbrik edərək BP və BANM-in birgə sertifikatı ilə təltif edib.

Tədbirin sonunda xatirə şəkli çəkilib.

Qeyd edək ki, 2 ay müddətində davam edən proqramın tədris edilməsi üçün müxtəlif şirkətlərdə çalışan təcrübəli ekspertlər cəlb olunub. Layihə çərçivəsində tələbələrə "Təqdimat və kommunikasiya bacarığı", "Layihələrin idarə edilməsi", "Vaxtın idarə edilməsi və effektivlilik", "Liderlik", "Risklərin idarə edilməsi", "Maliyyənin əsasları: Büdcə və xərclərə nəzarət", "İnsan resurslarının idarə olunması" kimi modullar keçirilib.

Layihədə BANM, ADNSU, UFAZ, BMU, ADA, AzMİU və Xəzər universitetlərindən xüsusi seçim prosesindən keçən 110-dan çox tələbə iştirak edib.

# Düyərlidə daşıyıcı qaz kəmərləri yenidən qurulur

Son illər SOCAR-ın "Azəriqaz" İstehsalat Birliyi (İB) tərəfindən respublikanın yaşayış məntəqələrinə təbii qazın bərpası, istehlakçıların qaz təchizatının yaxşılaşdırılması, səmərəli və effektiv qazpaylama infrastrukturunun yaradılması və şəbəkənin nəqletmə imkanlarının genişləndirilməsi, qaz kəmərlərinin və avadanlıqların yenidənqurulması istiqamətində genişmiqyaslı işlər görülür.

Tərtib edilmiş tədbirlər proqramına uyğun olaraq "Azəriqaz" İstehsalat Birliyi tərəfindən nəzərdə tutulmuş işlərin icrası ilə əlaqədar ilk növbədə kənd və qəsəbələrin daşıyıcı qaz kəmərlərinin yenidənqurulması, kəmərlər üzərində quraşdırılmış istismar müddəti bitmiş avadanlıqların yeniləri ilə əvəz edilməsi, sonrakı mərhələdə isə mövcud qaz paylayıcı şəbəkələrin, küçə və dalanların qaz xətlərinin yenidənqurulması, eləcə də hər bir istehlakçının mənzilinə qaz sayğaclarının quraşdırılması işləri 2019-cu ildə də uğurla davam etdirilir.

Tədbirlər planına uyğun olaraq cari ildə Şəmkir Regional Qaz İstismar İdarəsinin 6 xidmət sahəsi üzrə 50 km qaz kəmərinin yenilənməsi işləri nəzərdə tutulub ki, artıq 13 km boru xətləri yenisi ilə əvəzlənib. Aparılan əsaslı təmir-tikinti işləri çərçivəsində şəbəkənin qaz nəqletmə imkanının artırılması məqsədi ilə, Şəmkir rayonunun Düyərli kəndini təbii qazla təmin edən orta təzyiqli daşıyıcı yeraltı qaz kəmərinin 4 min metr hissəsinin, diametri 250 mm-lik polietilen qaz kəməri ilə əvəzlənməsi işlərinə başlanılıb və 2500 metrdən artıq hissəsi yenilənib. Yenidənqurma işlərinin qısa zamanda başa çatdırılması üçün müvafiq tədbirlər görülür. İşlər başa çatdırıldıqdan sonra 2 minə yaxın təbii qaz istehlakçılarının tələb olunan təzyiqdə təbii qazla təminatı üçün əlavə imkan yaradılacaq.

İstehlakçıların dayanıqlı təbii qazla təmin olunması üçün vacib məsələləri müəyyənləşdirən SOCAR-ın "Azəriqaz" İstehsalat Birliyi istər Bakı şəhəri, istərsə də regionlarda qaz boru xətlərinin, avadanlıqların, ölçü və idarəetmə sistemlərinin işinin etibarlı təmin olunması üçün planlı surətdə profilaktik təmir və qulluq işlərini, həmçinin qaz şəbəkəsinin yenidənqurulması, qaz təchizatının bərpası ilə yanaşı, yeni qaz kəmərlərinin çəkilməsi və yaşayış sahələrinin qazlaşdırılması işlərini davam etdirir.

# Akademik Urxan Ələkbərov Ankarada məruzə edib

**Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının (DİA) rektoru akademik Urxan Ələkbərov Ankara Sosial Elmlər Universitetində təşkil olunan elmi seminarda "Davamlı inklüziv inkişaf məqsədlərinin təmini üçün yeni idarəetmə texnologiyaları: Azərbaycanın təcrübəsi" mövzusunda məruzə ilə çıxış edib.**

"İki sahil" AZƏRTAC-a istinadən xəbər verir ki, məruzəçi torpaqlarımızın 20 faizinin təcavüzkar Ermənistan tərəfindən işğal altında saxlanılmasına baxmayaraq, Azərbaycanın qısa müddətdə innovativ davamlı inkişaf siyasətini reallaşdırmağa müvəffəq olduğunu bildirib. Vurğulayıb ki, bütün bu nailiyyətlər ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi, Prezident İlham Əliyev tərəfindən həyata keçirilən dərin düşünülmüş strategiya və tətbiq olunan orijinal innovativ idarəetmə texnologiyaları əsasında qazanılıb. Bu texnologiyaların işlənilməsi və həyata keçirilməsi prosesində Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva və onun rəhbərlik etdiyi Heydər Əliyev Fondu xüsusi rola malikdir.

Rektor diqqətə çatdırıb ki, 2018-ci il Davos Forumunun hesabatında inklüziv inkişaf indeksinə görə, Azərbaycan keçid iqtisadiyyatına malik ölkələr arasında 3-cü yerdə qərarlaşaraq, iqtisadi imkanları daha yüksək olan Avropa İttifaqı ölkələrinin çoxunu geridə qoyub. Akademik qeyd edib ki, bu qrupdakı ölkələrin üstün iqtisadi imkanlarının olmasına baxmayaraq, onlar arasında Azərbaycan Avropa İttifaqı, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının üzvü olan çox sayda dövlətlərdən irəlidədir. Azərbaycanın inklüziv inkişaf indeksləri ABŞ, Yaponiya, İtaliya, İsrail, İspaniya, Portuqaliya, Türkiyə, Rusiya və başqa ölkələrin göstəricilərini üstələyir. Bu nailiyyət Azərbaycan Respublikasında iqtisadi, sosial və humanitar siyasətin ümumi inkişaf strategiyasının vacib istiqaməti olmasından xəbər verir.

Akademik U.Ələkbərov qeyd edib ki, ölkəmizin inklüziv inkişaf edən cəmiyyətin qurulması istiqamətində qazandığı uğurların başlıca faktoru insan potensialının formalaşdırılması və səfərbər edilməsinə elmi yanaşmadadır. Son illərdə ölkədə adambaşına düşən gəlirlərin artması, iqtisadi dirçəlişə nail olunması dövlət sə-



viyyəsində elm, təhsil və səhiyyənin inkişafı üçün geniş şərait yaradıb. Təhlillər göstərir ki, Azərbaycan Respublikasında qazanılan uğurların əsasında Prezident İlham Əliyev tərəfindən işlənilmiş, nəzəri əsasları və tətbiq üsulları yeni olan idarəetmə texnologiyaları kompleksi dayanır. Məruzədə idarəetmədə istifadə olunan bu yeni sinergetik, komplementar və kompensasion texnologiyalar və onların kompleks tətbiqinin nəticələri geniş təhlil edilib.

Seminarın gedişində DİA-nın elmi-təşkilat və beynəlxalq əlaqələr şöbəsinin müdiri, dosent Rəcəb Rəhimli Azərbaycan Respublikasının dövlət idarəçilik sistemi, dövlət qulluğu sahəsində həyata keçirilən islahatlar və əldə edilən nəticələrlə bağlı ətraflı bilgi verib.

Məruzəçinin Azərbaycan həqiqətləri ilə bağlı təqdim etdiyi faktlar, alimin ölkəmizin inkişaf dinamikasına dair fikir və mülahizələri, o cümlədən nikbin proqnozları böyük maraqla qarşılanıb.

Sonda Akademik U.Ələkbərov seminarda iştirak edən professor, müəllim və doktorantların suallarını cavablandırıb.

Qeyd edək ki, Türkiyənin sosial elmlər sahəsində araşdırmalar həyata keçirən ilk və yeganə dövlət ali təhsil ocağı olan Ankara Sosial Elmlər Universiteti Azərbaycanla elmi əməkdaşlığa böyük diqqət göstərir.

# SOCAR-ın TENDERLƏRİ



Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)

## “Azneft” İstehsalat Birliyi

**Elektrik mallarına olan tələbatını təmin etmək məqsədi ilə açıq satınalma müsabiqəsi (11066AM-19) elan edir.**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***
* Müsabiqədə iştirak haqqında müraciət;
* İştirak haqqının ödənilməsi barədə bank sənədi;
* Müsabiqə təklifi.

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci. 15.05.2019-cu il, Bakı vaxtı ilə saat 17:30-a qədər Azərbaycan və ya rus dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***

* Müsabiqə təklifi bir əsli və 1 surəti olmaqla 21.05.2019-cu il, Bakı vaxtı ilə saat 11:00-a qədər zərflərin açılış zalında Satınalmalar qrupuna təqdim olunmalıdır. İddiaçının nümayəndələri qeydiyyatdan keçmələri üçün ən az yarım saat öncədən Satınalan təşkilata gəlməlidirlər.

* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.

* İştirakçının inzibati binaya buraxılışını təmin etmək üçün müraciət məktubunda iddiaçı şirkəti təmsil edəcək şəxsin adı, soyadı, vəzifəsi mütləq qeyd olunmalıdır.

* İddiaçını müsabiqədə təmsil edəcək şəxslə bağlı sonradan edilən dəyişiklik qəbul olunmayacaqdır.

***III. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***

* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan və ya rus dilində əldə etmək istəyənlər 118 AZN (ƏDV daxil) və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I qrafasında göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.

Hesab nömrəsi:
Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

***IV. Müqavilənin icra müddəti:***
* Satınalma müqaviləsinin 60 təqvim günü yerinə yetirilməsi tələb olunur.

***V. Müsabiqə təklifinin təminatı:***

*I. İddiaçının müsabiqə təklifinin ümumi qiymətinin minimum 1%-i miqdarında təminat tələb olunur.*

*II. Bank qarantiyalarının əsli müsabiqə zərfində müsabiqə təklifi ilə birlikdə təqdim edilməlidir. Əks təqdirdə satınalan təşkilat belə təklifi rədd etmək hüququnu özündə saxlayır.*

*III. Qarantiyanı vermiş maliyyə təşkilatı Azərbaycan Respublikasında və/və ya beynəlxalq maliyyə əməliyyatlarında qəbul edilən olmalıdır. Satınalan təşkilat etibarlı hesab edilməyən bank qarantiyaları qəbul etməmək hüququnu özündə saxlayır.*

*IV. Əgər satınalma müsabiqəsində iştirak etmək istəyən şəxslər digər növ təminat (akkreditiv, qiymətli kağızlar, satınalan təşkilatın müsabiqəyə dəvət sənədlərində göstərilmiş xüsusi hesabına pul vəsaitinin köçürülməsi, depozitlər və digər maliyyə aktivləri) təqdim etmək istədikdə təminat növünün mümkünlüyü barədə elanda göstərilmiş əlaqələndirici şəxsə əvvəlcədən sorğu verməlidir və razılıq əldə etməlidir.*

*V. Avans ödənişin təminatının məbləği ən azı ödəniləcək avans məbləğinə bərabər olacaqdır.*

Hazırki satınalma əməliyyatı üzrə Satınalan təşkilat tərəfindən maksimal olaraq 30% avans ödənişinin yerinə yetirilməsi nəzərdə tutulur.

Müqavilənin yerinə yetirilməsi təminatı satınalma müqaviləsinin qiymətinin 5 (beş) %-i məbləğində tələb olunur.

***VI. Satınalan təşkilatın ünvanı:***
AZ1000, Bakı şəhəri, Səbail rayonu; Neftçilər prospekti 73; SOCAR, “Azneft” İB
**Əlaqələndirici şəxs:**
Müsayev Kamil
Satınalmalar və Təchizat şöbəsi, ekspert
korporativ telefon nömrəsi: +99412 521 00 00 - 11 337 (daxili)
korporativ mobil nömrəsi: +99450 417 71 01
korporativ faks nömrəsi: +99412 521 11 72
korporativ elektron ünvanı: kamilH.musayev @socar.az

***VII. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***
www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***VIII. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***
Zərflərin açılışı. 21.05.2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 11:00-da elanın VI qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***IX. Müsabiqənin nəticəsi haqqında məlumat:***
Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə ediləbiləcək:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**“Azneft” İstehsalat Birliyinin Satınalmalar qrupu**



Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)

## “Neftqaztikinti” Tresti

**müxtəlif ölçülü künclüklərə olan tələbatını təmin etmək məqsədi ilə açıq satınalma müsabiqəsi üzrə müraciətlərin son tarixinin, həmçinin təklif zərflərinin açılış tarixinin müddətinin uzadılmasını elan edir. (25034-19)**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***
* Müsabiqədə iştirak haqqında müraciət;
* İştirak haqqının ödənilməsi barədə bank sənədi;
* Müsabiqə təklifi.

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 23.04.2019-cu il, Bakı vaxtı ilə saat 17:30-a qədər Azərbaycan, rus və ya ingilis dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son günü nədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***

* Müsabiqə təklifi bir əsli və 2 surəti olmaqla 30.04.2019-cu il, Bakı vaxtı ilə saat 11:00-a qədər Satınalan təşkilata təqdim olunmalıdır.

* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.

***III. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***

* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan, rus və ya ingilis dilində əldə etmək istəyənlər 354 manat (ƏDV-ilə) və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I qrafasında göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.

Hesab nömrəsi:
Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X.

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

***IV. Müqavilənin icra müddəti:***
Satınalma müqaviləsinin veriləcək sifariş əsasında 60 təqvim günü ərzində yerinə yetirilməsi tələb olunur.
**Bank təminatı:**
İddiaçının təqdim etməli olduğu müsabiqə təklifinin təminatı müsabiqə təklifinin ümumi qiymətinin 2 (iki) %-dək məbləğindən aşağı olmamalıdır.

Avans ödənişin təminatının məbləği ən azı ödəniləcək avans məbləğinə bərabər olmalıdır.

Müqavilənin yerinə yetirilməsi təminatı satınalma müqaviləsinin qiymətinin 5 % məbləğində müəyyənləşdirilir.

***V. Satınalan təşkilatın ünvanı:***
AZ1018 (indeks), Xətai rayonu, 2922 məhəllə, Zığ yolu küçəsi 41C, “Neftqaztikinti” Trestinin inzibati binasının 3-cü mərtəbəsi, Bakı şəhəri, Azərbaycan Respublikası.
**Əlaqələndirici şəxs:**
Astanov Siyavuş
Maddi Texniki Təchizat və Marketinq şöbəsinin mühəndisi
Telefon nömrəsi: +994 12 521-00-00 25-125
Korporativ mobil: +994 50 454 66 33
Elektron ünvan: siyavush.astanov@socar.az

***VI. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***
www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***VII. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***
Zərflərin açılışı 30.04.2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 11:30-da elanın V qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***VIII. Müsabiqənin nəticəsi haqqında məlumat:***
Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə ediləbiləcək:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**“Neftqaztikinti” Trestinin Satınalmalar qrupu**

# SOCAR-ın TENDERLƏRİ



Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)

## "Neftqaztikinti" Tresti

**müxtəlif ölçülü şvellerlərə olan tələbatını təmin etmək məqsədi ilə açıq satınalma müsabiqəsi üzrə müraciətlərin son tarixinin, həmçinin təklif zərflərinin açılış tarixinin müddətinin uzadılmasını elan edir. (25035-19)**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***

* Müsabiqədə iştirak haqqında müraciət;
* İştirak haqqının ödənilməsi barədə bank sənədi;
* Müsabiqə təklifi.

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 23.04.2019-cu il, Bakı vaxtı ilə saat 17:30-a qədər Azərbaycan, rus və ya ingilis dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***

* Müsabiqə təklifi bir əsli və 2 surəti olmaqla 30.04.2019-cu il, Bakı vaxtı ilə saat 11:30-a qədər Satınalan təşkilata təqdim olunmalıdır.
* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.

***III. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***

* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan, rus və ya ingilis dilində əldə etmək istəyənlər 354 manat (ƏDV-ilə) və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I qrafasında göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.

Hesab nömrəsi:
Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X.

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

***IV. Müqavilənin icra müddəti:***

Satınalma müqaviləsinin veriləcək sifariş əsasında 60 təqvim günü ərzində yerinə yetirilməsi tələb olunur.

**Bank təminatı:**

İddiaçının təqdim etməli olduğu müsabiqə təklifinin təminatı müsabiqə təklifinin ümumi qiymətinin 2 (iki) %-dək məbləğindən aşağı olmamalıdır.

Avans ödənişin təminatının məbləği ən azı ödəniləcək avans məbləğinə bərabər olmalıdır.

Müqavilənin yerinə yetirilməsi təminatı satınalma müqaviləsinin qiymətinin 5 % məbləğində müəyyənləşdirilir.

***V. Satınalan təşkilatın ünvanı:***

AZ1018 (indeks), Xətai rayonu, 2922 məhəllə, Zığ yolu küçəsi 41C, "Neftqaztikinti" Trestinin inzibati binasının 3-cü mərtəbəsi, Bakı şəhəri, Azərbaycan Respublikası.

**Əlaqələndirici şəxs:**
Astanov Siyavuş
Maddi-Texniki Təchizat və Marketinq şöbəsinin mühəndisi
Telefon nömrəsi: +994 12 521-00-00 25-125
Korporativ mobil: +994 50 454 66 33
Elektron ünvan: siyavush.astanov@socar.az

***VI. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***

www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***VII. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***

Zərflərin açılışı 30.04.2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 12:00-da elanın V qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***VIII. Müsabiqənin nəticəsi haqqında məlumat:***

Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə edilə biləcək:

http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**"Neftqaztikinti" Trestinin Satınalmalar qrupu**



Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)

## "Neftqaztikinti" Tresti

**ikitavrlara (60B1 və 60B2) olan tələbatını təmin etmək məqsədi ilə açıq satınalma müsabiqəsi üzrə müraciətlərin son tarixinin, həmçinin təklif zərflərinin açılış tarixinin müddətinin uzadılmasını elan edir. (25050-19)**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***

* Müsabiqədə iştirak haqqında müraciət;
* İştirak haqqının ödənilməsi barədə bank sənədi;
* Müsabiqə təklifi.

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 25.04.2019-cu il, Bakı vaxtı ilə saat 17:30-a qədər Azərbaycan, rus və ya ingilis dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***

* Müsabiqə təklifi bir əsli və 2 surəti olmaqla 02.05.2019-cu il, Bakı vaxtı ilə saat 11:30-a qədər Satınalan təşkilata təqdim olunmalıdır.
* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.

***III. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***

* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan, rus və ya ingilis dilində əldə etmək istəyənlər 590 manat (ƏDV-ilə) və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I qrafasında göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.

Hesab nömrəsi:
Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X.

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

***IV. Müqavilənin icra müddəti:***

Satınalma müqaviləsinin veriləcək sifariş əsasında 60 təqvim günü ərzində yerinə yetirilməsi tələb olunur.

**Bank təminatı:**

İddiaçının təqdim etməli olduğu müsabiqə təklifinin təminatı müsabiqə təklifinin ümumi qiymətinin 2 (iki) %-dək məbləğindən aşağı olmamalıdır.

Avans ödənişin təminatının məbləği ən azı ödəniləcək avans məbləğinə bərabər olmalıdır.

Müqavilənin yerinə yetirilməsi təminatı satınalma müqaviləsinin qiymətinin 5 % məbləğində müəyyənləşdirilir.

***V. Satınalan təşkilatın ünvanı:***

AZ1018 (indeks), Xətai rayonu, 2922 məhəllə, Zığ yolu küçəsi 41C, "Neftqaztikinti" Trestinin inzibati binasının 3-cü mərtəbəsi, Bakı şəhəri, Azərbaycan Respublikası.

**Əlaqələndirici şəxs:**
Astanov Siyavuş
Maddi-Texniki Təchizat və Marketinq şöbəsinin mühəndisi
Telefon nömrəsi: +994 12 521-00-00 25-125
Korporativ mobil: +994 50 454 66 33
Elektron ünvan: siyavush.astanov@socar.az

***VI. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***

www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***VII. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***

Zərflərin açılışı 02.05.2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 12:00-da elanın V qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***VIII. Müsabiqənin nəticəsi haqqında məlumat:***

Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə edilə biləcək:

http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**"Neftqaztikinti" Trestinin Satınalmalar qrupu**

## "Ümid"də yeni quyunun debiti:

# Sutkada 2.5 milyon kubmetr qaz və 400 ton kondensat





**Dünən "SOCAR AQŞ" MMC-nin baş direktoru Ramin İsayev jurnalistlər üçün mətbuat konfransı keçirdi. Konfransda müəssisənin aparıcı mütəxəssisləri və KİV nümayəndələri iştirak edirdilər.**

R.İsayev əvvəlcə müəssisənin son günlər əldə etdiyi uğurlardan bəhs etdi. Qeyd etdi ki, bu günlərdə "SOCAR AQŞ" MMC "Ümid" yatağının 1 saylı dəniz stasionar özülündən faktiki dərinliyi 6810 metr olan 16 saylı quyunun tikintisi işlərini təhlükəsiz və ətraf mühitə heç bir ziyan vurmadan uğurla yekunlaşdırıb sifarişçiyə təhvil verib: "Bu quyunun həm qazma sənayesi üçün, həm neft-qaz hasilatı üçün, həm də gələcəkdə görüləcək işlər üçün bir ilk olaraq böyük əhəmiyyəti var. Bu quyuda SOCAR-ın qazma işləri tarixində ilk dəfə olaraq, quyu tikintisi zamanı qazma texnologiyalarında müəyyən dəyişiklik edilib, quyuağzı avadanlıqların yığılmasında yeni metodlar tətbiq olunub və yüksək hasilatın əldə olunması üçün 5 1/2 düymə monobar lift boruları vasitəsilə tamamlanma işləri aparılıb. Əldə edilən uğurlardan biri də "Ümid" yatağı üzrə məhsuldar horizonrtlarda lay təzyiqlərinin ölçülməsi və süxur nümunələrinin götürülməsi olub. 16 nömrəli quyunun keyfiyyətlə təhvil verilməsi və sifarişçi məmnunluğunun tam yerinə yetirilməsi "Ümid" yatağında yeni bir dövrün başlanmasına təkan verir. Sifarişçi ilə birgə iş apararaq 7-ci horizontu açmağa nail olduq və bunun nəticəsində çox böyük debit əldə etdik. Bu da hazırda həmin yataq üçün rekord göstəricidir."

R.İsayev bildirdi ki, son günlər SOCAR rəhbərliyi tərəfindən mətbuata verilən məlumatlardan da aydın görünür ki, quyunun ölçülmüş debiti sutkada 2.5 milyon kubmetr qaz və 400 ton kondensat olub: "Bu isə təqribən il ərzində 900 milyon kubmetr qaz hasilatı deməkdir. Müqayisə üçün bildirim ki, yataqdan bu günə kimi 2 milyarddan artıq qaz hasil edilib, ancaq bir quyunun bir ildəki hasilatı təxminən 1 milyard kubmetrə yaxın olacaq. Bu da onu deməyə əsas verir ki, quyu əhəmiyyətini və məhsuldarlığını təsdiqləyir."

"SOCAR AQŞ"nin rəhbəri sonra məlumat verdi ki, bu günlərdə "KCA Deutag" və "SOCAR AQŞ" şirkətlərinin birgə müəssisəsi olan "Turan Drilling & Engineering" MMC "BP Exploration (Caspian Sea) Limited" (BP) şirkəti ilə beş illik və sonradan müddəti bir il olmaqla 2 dəfə də uzadıla bilən müqavilə imzalayıb: "İmzalanan müqavilənin təxmini dəyəri razılaşdırılmış müddət üzrə 500 milyon ABŞ dolları və müqavilə müddətinin uzadılması imkanları da nəzərə alınmaqla 700 milyon ABŞ dolları məbləğindədir. Bu da Azərbaycanın qazma sənayesində mühüm əhəmiyyətə malik bir sənəddir. Müqavilə Hasilatın Pay Bölgüsü Sazişinin müddəalarına əsasən, BP şirkətinin Xəzər dənizindəki 7 stasionar özülündə qazma qurğularının idarə edilməsini və onlara texniki xidmətin göstərilməsini nəzərdə tutur. Müqavilənin əhatə dairəsinə "Şərqi Azəri", "Qərbi Azəri", "Mərkəzi Azəri", dərinsulu "Günəşli", habelə "Qərbi Çıraq", "Çıraq" və "Şahdəniz" yataqlarındakı dəniz özülləri üzrə qazma qurğuları daxildir. Müqavilənin ilkin müddəti beş ildir və iki dəfə bir il müddətinə artırıla bilər. Birgə müəssisə özündə qazma və mühəndis-layihələndirmə işlərinin yerinə yetirilməsi sahəsində dünyanın aparıcı podratçılarından sayılan "KCA Deutag" şirkətinin səriştəsini, habelə "SOCAR AQŞ"nin Xəzər regionunda qabaqcıl təcrübəsini və infrastrukturunu birləşdirir. Bu müqavilənin bağlanılması birgə müəssisəmizin ən yüksək sənaye standartlarını tətbiq etməklə kompleks layihələrin həyata keçirilməsi sahəsində texniki imkanlarının və potensialının müştəri tərəfindən tanınmasına dəlalət edir. Yerli şirkət olaraq "Turan Drilling and Engineering" birgə müəssisəsi təsisçi şirkətlərin mövcud infrastruktu, təcrübəsi və resursları kimi amillərin birləşdirilməsi sayəsində xərclərin optimallaşdırılmasını təmin etmək baxımından əlverişli mövqeyə malikdir."

R.İsayev onu da bildirdi ki, "Turan" Qazma və Mühəndislik Şirkəti Xəzər dənizi ilə Mərkəzi Asiya bölgəsində neft və qaz quyularının qazılması və mühəndislik xidmətlərini həyata keçirməklə biznesini genişləndirəcək: "Bu da ölkəmizə həm maliyyə baxımından, həm də nüfuz baxımından dividentlər gətirəcək. Eyni zamanda, Azərbaycan üçün dünya səviyyəli qazma mütəxəssislərinin yetişdirilməsinə öz töhfəsini verəcək."

Sonra "SOCAR AQŞ" MMC-nin baş direktoru R.İsayev və müəssisənin əməkdaşları jurnalistləri maraqlandıran sualları cavablandırdılar.

**Orxan Vahidoğlu, Vüsal Cahanov (foto),**
***"İki sahil"***

# Heydər Əliyev və jurnalistikamız



**Aprelin 18-də Azərbaycan Dillər Universitetində (ADU) Filologiya və jurnalistika fakültəsinin Virtual jurnalistika kafedrasının təşkilatçılığı ilə "Heydər Əliyev və jurnalistikamız" mövzusunda tədbir keçirilib.**

Kafedranın müdiri Nərgiz Qurbanlı ümummilli lider Heydər Əliyevin xatirəsini əziz tutmağın, onun fəaliyyəti ilə tələbələri yaxından tanış etməyin mənəvi borc olduğunu söyləyib. O, Heydər Əliyevin 2002-ci ildə "Jurnalistlərin dostu" mükafatı ilə təltif olunduğunu deyərək həmin mərasimdə Ulu Öndərin dediyi sözləri xatırladıb. Heydər Əliyevin Azərbaycana qayıdışından sonra ölkə mətbuatında yeni səhifənin açıldığını deyən kafedra müdiri 1998-ci ildə senzuranın ləğv olunması haqqında danışıb. Senzuranın ləğvinin azad mətbuatın inkişafında mühüm addımlardan biri olduğunu deyən N.Qurbanlı Ümummilli Liderin jurnalistlərlə səmimi münasibətindən də söz açıb.

Tədbirdə ulu öndər Heydər Əliyevin jurnalistlərlə münasibətini əks etdirən videoçarx nümayiş olunub.

Daha sonra jurnalistika ixtisasında təhsil alan tələbələrin Yeni Azərbaycan Partiyasının Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə və Əməkdar jurnalist, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Səyyad Aran ilə müsahibələrin videogörüntüləri təqdim olunub.

Milli Məclisin deputatı, siyasi elmlər doktoru, professor, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru Hikmət Babaoğlu Heydər Əliyevin Azərbaycan xalqının milli əfsanəsi olduğunu deyib. O, Heydər Əliyevin yalnız siyasi xadim deyil, həmçinin Azərbaycan xalqı üçün dəyər olduğunu söyləyib. Milli Məclisin deputatı Ulu Öndərin fəaliyyətindən keçən qızıl xətlərdən birinin də onun milli mətbuata, jurnalistikaya verdiyi qiymət olduğunu diqqətə çatdırıb. Ulu Öndərin bu sahənin inkişafı istiqamətində xidmətlərindən bəhs edən H.Babaoğlu ölkə jurnalistikasından da söz açıb.

ADU-nun Azərbaycan ədəbiyyatı kafedrasının müdiri, akademik Muxtar İmanov Heydər Əliyevin Azərbaycan elminin, ədəbiyyatının, dilçiliyinin, mətbuatının inkişafındakı misilsiz xidmətlərindən danışıb, müasir jurnalistikanın qarşısında duran vacib məsələlərə toxunub.

Sonda tələbələrin sualları cavablandırılıb.

**Zamin Məmmədov,**
***"İki sahil"***



# Müsavatın klanları və satqınların təqibi

**Zahid Rza**

Müxalifətdaxili intiriqa və çəkişmələrdən doğan gərginlik artıq ofislərin, qərargahların divarlarını aşaraq sosial şəbəkələri "partlatmaqda" davam edir. Son zamanlar AXCP ilə REAL arasında baş verənlər, Azərbaycan Xalq Hərəkatındakı (AXH) əlbəyaxalaşmalar, Müsavat Partiyasındakı qarşılıqlı ittihamlar, qalmaqallar və s.

Təbii ki, bu, ilk növbədə keçən əsrin 90-cı illərində ilişib qalaraq küçə və çayxana psixologiyasından əl çəkməyən, məzmun və forma etibarilə dəyişməyən, iyirmi ildən çox bir zaman kəsiyində konstruktivlikdən, reallıqlardan uzaq düşən, hakimiyyət, şəxsi ambisiyalar naminə zaman-zaman Azərbaycan dövlətinin düşmənləri ilə işbirliyinə gedərək marginallaşan, bu üzdən də getdikcə aşınaraq tükənən dağıdıcı müxalif düşərgəsinin kəskin böhranının və tənəzzülünün təzahürüdür. İnkarçılığı fanatizm səviyyəsinə çatdıran, normal, sivil mübarizə metodlarına arxa çevirərək, antiazərbaycan ruhlu xarici təşkilatların maliyyə dəstəyi ilə sosial şəbəkələrdə əsassız iddialarla dolu bəlağətli çıxışlarla hər addımda cəmiyyəti çaşdırmağa çalışan AXCP, "Milli Şura", Müsavat Partiyası kimi təşkilatların təmsilçiləri (başda Əli Kərimli, Cəmil Həsənli, Gültəkin Hacıbəyli, Tofiq Yaqublu, Arif Hacılı olmaqla) yalançı illuziyalarla, saxta "demokratiya", insan haqları" iılğımları ilə, təxribatçı addımları ilə ölkədə süni gərginlik və narazılıq dalğası yaratmağa çalışsalar da həmişə olduğu kimi, yenə də cəmiyyətin sərt təpkisi ilə qarşılaşaraq nokaut vəziyyətinə düşürlər. Siyasi şüuru və ümummədəni səviyyəsi aşağı olan, kompromisi və konsensusu, konstruktivliyi və qurucu

luğu rədd edən, alternativliyi, ümumiyyətlə, qəbul etməyən bu pozucu qüvvələr nəinki real hakimiyyətə konstruktiv müxalifətçilik edən siyasi qüvvələrin, hətta öz partiyadaşlarının tənqidlərinə, alternativ fikirlərinə, rasional düşüncələrinə belə dözümsüzlük nümayiş etdirirlər. Nəticədə də həm məlum düşərgədə, həm də həmin düşərgədə təmsil olunan siyasi təşkilat və partiyaların daxilində "biz və onlar" "ağ və qırmızılar", "bizim kimi düşünməyənlər bizə düşməndir" prinsipi ilə daxili didişmələr, intriqalar qızışır, qurumdaxili "acinnə ovu"na start verilir.

Bu yaxınlarda dağıdıcı düşərgənin lokomotivlərindən olan AXCP funksionerlərinin REAL Partiyasına hücumu və iki təşkilatın arasındakı qarşıdurmanın kəskinləşməsi, Müsavat Partiyasında baş verənlər, AXH-İsgəndər Həmidovla, AG Partiyanın sədri Tural Abbaslının az qala yumruqtəpik davasına çıxmaları bunun əyani təsdiqidir.

Müsavat Partiyasında isə bütün mənəvi-əxlaqi sədləri aşaraq açıq mübarizə müstəvisinə keçən qarşıdurma artıq özünün pik nöqtəsinə çatıb. Belə ki, partiyanın rəhbərliyi yaxın ətrafını təlimatlandıraraq özünün "mühacir biznesi"nə qarşı çıxan Yadigar Sadıqlıya qarşı total hücum başladıb. Müsavat Partiyası başqanının müşaviri Yadigar Sadıqlı "Facebook"da status yazaraq özünə qarşı edilən hücumlara görə partiyanın rəhbəri Arif Hacılını ittiham edib: "Müsavat Partiyası üzvlərinin qapalı qrupunda başqan Arif Hacılının xeyir-duası ilə məni satqın, öyrədilmiş, Müsavatı parçalayan elan etmək uğrunda yarış gedir. Kimlərin etdiyini soruşmayın, əksəriyyətini heç tanımazsınız, profillərində hakimiyyət əleyhinə söz tapmazsınız".

Y.Sadıqlının Müsavat üzvü olan Ceyhun Məmmədlinin onun haqqında dediklərini də paylaşması, C.Məmmədlinin Sadıqlını "öyrədilmiş, kinli, Müsavatı parçalayan" kimi təqdim etməsi, Y.Sadıqlının müdafiə edənlərin Müsavatın Göyçay rayon təşkilatının keçirdiyi iclasla bağlı qapalı qrupa göndərdiyi məlumatı (partiyanın Nəzarət Təftiş Komissiyasının Göyçayda keçirilən genişləndirilmiş şura toplantısı" cəmi 3 nəfərlə keçirilməsi) paylaşması təşkilatda qruplaşmalararası mübarizənin getdikcə qızışmasına dəlalət edir.

Məsələn, bütün bunlardan sonra Müsavatda rəhbərlik tərəfindən xüsusi "sadiq təəbələr"dən ibarət qapalı qrupun yaradılması burada təmsil olunmayan, ayrı-seçkiliyə məruz qalan müsavatçıların etirazına səbəb olub. Belə ki, partiya üzvü Vüsal Süleymanın "mən niyə o qrupda yoxam" sualına "Çünki sən İsa bəyin klanında yer almırsan" cavabını veriblər. Həmçinin qızğın müzakirələrdən açıq-aşkar görünür ki, Müsavat Partiyasında İsa Qəmbər-Arif Hacılı cütlüyünün komandası ilə Tofiq Yaqublu və Yadigar Sadıqlını lider görmək istəyənlər qruplar arasında mübarizə artıq açıq mübarizə müstəvisinə keçib. (Yadigar Sadıqlı bir müddət əvvəl o, partiya başqanlığına namizədliyini irəli sürəndə funksionerlərdən Elman Fəttah və Tofiq Yaqublu, o cümlədən əksər Divan üzvləri onu dəstəkləyiblər). Bunu müsavatçı Fərəc Kərimlinin Yadigar Sadıqlıya etirazı və Y.Sadıqlının F.Kərimliyə cavabında da açıq-aşkar müşahidə etmək olur: "Müsavat qərargahının divarlarının hansı söyüşlər eşitdiyini bir dəfə sizə danışa bilərəm. Özü də bu gün məni qınayanlar tərəfindən səslənilən söyüşlər". Daha maraqlısı isə odur ki, Y.Sadıqlı Müsavat Partiyasının sosial bazasının, ictimai dəstəyinin olmamasını da dilə gətirib: "Özünüzü aldatmaqda davam edirsiniz. Müsavatın gücünü çoxdan bitirmisiniz, partiyanın nüfuzu darmadağın olub. Bu gün "Müsavat güclənir" deməklə deyil. Novxanıdakı tədbirə Frankfurtdakından az adam gəlir. Reallığa qayıdın".

Şübhəsiz, bütün bunlar əsasən 1992-1993-cü illərdə, necə deyərlər, tank və topların lülələrinin müşayiəti ilə hakimiyyəti zəbt edərək öz səriştəsiz və naşılıqları, savadsız idarəçilikləri ilə Azərbaycanın müstəqilliyini təhlükə altında qoyanlardan ibarət olan dağıdıcı müxalifət düşərgəsindəki əsl reallıqların cüzi bir hissəsidir. Pozucu-inkarçı, nihilist müxalifət düşərgəsindəki tablo göz önündədir: söyüş, təhqir, yumruq-təpik, "əəəə, yırtaram, dağıdaram, ağzını cıraram" və s. Bunlar yenidən hakimiyyətə gəlsələr (Allah göstərməsin) ölkədə baş verəcəkləri bir anlığa düşənmək belə insanı vahimələndirir: xaos, anarxiya, vətəndaş qarşıdurması, qardaş qırğını, aclıq, səfalət...

# Qazmaçılar iməcilik keçirib



Bu günlərdə SOCAR-ın Kompleks Qazma İşləri Trestinin şöbə və bölüm rəislərindən ibarət 150 nəfərlik kollektivinin iştirakı ilə Trestin Anbar Təsərrüfatı Bölümünün ərazisində yaşıllıq sahələrininn artırılması məqsədilə genişmiqyaslı iməcilik keçirilib. İməcilik zamanı bölümün ərazisində ağacların əkilməsi üçün nəzərdə tutulmuş sahə əvvəlcə alaq otlarından təmizlənib. Ümumi səliqə-sahman işləri aparıldıqdan sonra 250 yeni ağac, 300 müxtəlif gül kolu əkilib. Bundan əlavə sahədə olan digər ağacların dibləri ağardılıb, onlara aqrotexniki qulluq göstərilib.



Genişmiqyaslı iməciliklərin digər bölümlərdə də keçirilməsi və yaşıllıq sahələrinin artırılması davam etdiriləcək.

# "Santos"un böyük kəşfi

Avstraliyanın "Santos" neft və qaz şirkəti Qərbi Avstraliyada, Karnarvon hövzəsində yerləşən "Corvus-2" qiymətləndirmə quyusunda regionda şirkətin hasilatını artıracaq mühüm təbii qaz kəşfinə imza atıb.

Quyu Dampier limanının 90 km şimal qərbindəki "WA-45-R" blokunda yerləşir və ümumi dərinliyi 3,998 metr təşkil edir. Şirkət quyunun 638 metr dərinliyində nəhəng sütunların aşkar olunduğunu, 245 metr dərinliyində isə karbohidrogen təzahürlərinə rast gəlindiyini bildirib. Quyudan ilkin olaraq 2.5 trilyon kubfut qaz, 25 milyon barrel isə qaz kondensatı aşkar olunub.

"İki sahil" "spglobal.com" saytına istinadən xəbər verir ki, bu Karnarvon hövzəsində "Satyr-4" kəşfindən sonra aşkar olunan ən nəhəng kəşf hesab olunur. Bu haqda məlumatı analitik Daniel Toleman öz çıxışında bildirib.

"Santos" şirkətinin baş icraçı direktoru Kevin Gallagher "Corvus-2" nin regionda daha çox gəlir gətirəcək bir kəşf olduğunu, quyudan gözlənildiyindən daha artıq həcmdə ehtiyatın hasil olunduğunu bildirib.

# Bu rayonların təbii qaz təchizatında məhdudiyyətlər olacaq



Bakının Nəsimi və Yasamal rayonlarının təbii qaz təchizatında məhdudiyyətlər olacaq.

SOCAR-ın "Azəriqaz" İstehsalat Birliyindən AZƏRTAC-a bildirilib ki, Nəsimi rayonu, Asif Məhərrəmov küçəsində pilot layihə ilə çəkilmiş qaz xətlərinin mövcud şəbəkəyə qoşulması ilə əlaqədar aprelin 19-da saat 09:00-dan təmir işləri tamamlananadək Nəsimi rayonu 1 və 2-ci Alatava, Tbilisi prospekti, 20 Yanvar, A.Məhərrəmov, A.Qurbanov, Bakıxanov, C.Məmmədquluzadə və H.Əliyev küçələrinin bir hissəsində təbii qazın verilişində fasilələr yaranacaq. Görülən zəruri təmir işlərinin Nərimanov və Binəqədi rayonlarının bir hissəsinin də qaz təchizatına təsir göstərməsi mümkündür. Aparılan işlər gün ərzində yekunlaşdırılaraq təbii qazın verilişi təmin ediləcək.

Yaranacaq məhdudiyyətlə bağlı "Azəriqaz" İstehsalat Birliyi bütün istehlakçılardan təbii qazdan istifadə zamanı xüsusilə diqqətli olmalarını və texniki təhlükəsizlik qaydalarına riayət edilməsini xahiş edir.

# Nəcib təşəbbüs

Hamarat, Daster, Bradi və Dızdipok yaşayış məntəqələrini özündə birləşdirən Daster dağlar diyarı Lerikin ucqar ərazisi sayılır. Burada fəaliyyət göstərən idarə, müəssisə, təşkilatlarda çalışanlar may ayının 10-dək qədər davam edəcək " Təmizlik aylığı"nda böyük fəallıq göstərirlər.

Artıq ərazidə olan yol kənarlarında, mərkəzi yerlərdə, müəssisələrin ətraflarında səliqə-sahman işləri görülüb, gözü tutulmuş bir neçə bulağın ətrafı qaydaya salınıb. Bu nəcib təşəbbüsə qoşulanlar kəndləri birləşdirən yollar boyunca, məktəblərin, ayrı-ayrı müəssisələrin həyətlərində, gözə dəyən mənzərəli yerlərdə müxtəlif növ ağaclar, bəzəkli gül kolları əkirlər. Qısa müddətdə ərazidə 2000-ə yaxın ağacdan ibarət yaşıllıq salınmışdır.

**Zəfər Orucoğlu,**
*Azərbaycan Jurnalistlər Birliyinin üzvü*

# Müəllim ömrü

**Müəllim ömrü yanar şama bənzəyir. Təsadüfi deyil ki, ulu öndər Heydər Əliyev bu barədə söhbət düşəndə həmişə deyirdi ki, "Mən dünyada müəllimdən şərəfli ad tanımıram". Bu şərəfli adın sahibləri gözlərinin nuru, qəlblərinin hərarəti ilə yetirmələrinin elm və təhsilə uzanan yoluna işıq salır, onların bilikli, savadlı, yaradıcı, Vətənə və cəmiyyətə layiq insan olmalarına zəmin yaradırlar. Gənclər etimadı doğruldanda, həyatda uğurlar qazananda əməyinin bəhrəsini görən müəllimləri bundan zövq alır, mənən gəncləşirlər.**

Haqqında qürurla, fəxrlə danışmaq istədiyimiz sözün əsl mənasında pedaqoq, gözəl insan, qayğıkeş ata, çox səmimi iş yoldaşı, dürüst, mədəni, saf əqidə sahibi, tanınmış alim, kimya elmləri doktoru, professor, elmi fəaliyyəti katalizi və neftin, qazın kimyası və emalı texnologiyası sahələrini özündə birləşdirən Əməkdar müəllim Keykavus Yusif oğlu Əcəmovdur.

K.Y.Əcəmov 14 avqust 1941-ci ildə Bakı şəhərində anadan olub.

Keykavus Əcəmov 1959-cu ildə Bakıda 101 saylı məktəbi bitirmiş və həmin ildə M.Əzizbəyov adına Qırmızı Əmək Bayrağı Ordenli Azərbaycan Neft və Kimya İnstitutuna daxil olmuş və 1965-ci ildə oranı "Əsas üzvi və neft-kimya sintezinin texnologiyası" ixtisası üzrə bitirmişdir.

1966-1969-cu illərdə K.Y.Əcəmov M.Əzizbəyov adına Qırmızı Əmək Bayrağı Ordenli Azərbaycan Neft və Kimya İnstitutunun aspirantı olmuş, 1969-cu ildə "Amonyakın iştirakı ilə butilenlərin oksigenli dehidrogenləşməsi prosesi" mövzusunda namizədlik dissertasiyasını müdafiə edərək SSRİ Nazirlər Soveti yanında AAK-ın qərarı ilə 1969-cu ildə Fiziki kimya ixtisası üzrə kimya elmləri namizədi alimlik dərəcəsi almışdır. K.Y.Əcəmov yuxarıda adı çəkilən institutda 1968-1972-ci illərdə "Fiziki kimya" kafedrasında assistent, sonra baş müəllim, 1972-1982-ci illərdə dosent vəzifələrində çalışmışdır.

Bu illərdə o, dünyada tanınmış SSRİ Elmlər Akademiyasının Kimyəvi Fizika İnstitutunun laboratoriya rəhbəri, professor O.V.Krılov və L.Y.Marqolis, Wisconsin-Milwaukee (USA) Universitetinin professoru W.Kelks ilə birlikdə elmi işlər aparmışdır. Onların birlikdə apardıqları elmi işlərin nəticələri bir sıra elmi jurnallarda çap olunmuşdur.

K.Y.Əcəmov 1972-ci ildə Novosibirsk şəhəri Kataliz İnstitutuna ezamiyyətə göndərilir. Burada o, kataliz sahəsində dünya miqyaslı alim, akademik



Q.K.Boreskovla sıx elmi əməkdaşlıq yaradır. Həmin ildə o, Ukrayna MEA Fiziki Kimya İnstitutu ilə birgə elmi fəaliyyətə başlayır. Ukraynanın Milli Elmlər Akademiyasının müxbir üzvü Y.B.Qoroxovatski ilə sıx elmi əməkdaşlıq edir. Bu üç elmi ocaq ilə əməkdaşlıq nəticəsində molibdatların fiziki-kimyəvi xassələri ilə olefinlərin oksigenli birləşmələrə çevrilməsi arasında qanunauyğunluqlar müəyyən olunmuş və bu da kataliz sahəsini zənginləşdirmişdir.

1972-ci ildən başlayaraq SSRİ-də keçirilən Oksigenli kataliz konfransının və sonradan 1999, 2001 və 2004-cü ildə keçirilən Zərif üzvi kimya və kataliz Beynəlxalq konfransının fəal iştirakçılarından və təşkilatçılarından biri olmuşdur.

1973-cü ildə ilk dəfə olaraq kataliz sahəsində SSRİ-Amerika arasında əməkdaşlıq proqramına K.Y.Əcəmovun elmi istiqaməti - "Molibdatların fiziki-kimyəvi və katalitik xassələri" daxil olunmuşdur. Həmin ildən başlayaraq, o, kataliz sahəsində bütün mötəbər konfransların iştirakçısı olur.

1973-cü ildə K.Y.Əcəmovun rəhbərliyi ilə "Propilenin Co-Mo-O katalizatoru üzərində çevrilməsinin tədqiqi" mövzusunda ilk namizədlik dissertasiyası müdafiə edilmişdir.

1976-cı ildə Polşanın Krakov şəhərində Kataliz İnstitutunda ezamiyyətdə olduğu zaman K.Əcəmovun və professor E.Haberin arasında yaranan dostluq böyük elmi istiqamətin yaranmasına səbəb olmuşdur. Professor E.Haber (1982-1986-cı illərdə Ümumdünya Kataliz Komitəsinin prezidenti) dəfələrlə Bakıda K.Y.Əcəmovun yaxından iştirakı ilə təşkil olunmuş Beynəlxalq Oksigenli kataliz konfransında məruzələrlə çıxış etmişdir.

Molibdatların sistematik tədqiqinin nəticəsi olaraq Rusiya (S.L.Kiperman), İtaliya (F.Trifiro), İspaniya (V.Korberan), Portuqaliya (M.Portele) alimləri ilə birlikdə K. Əcəmova PROJECT "İNTAS-96-1117" proqramının qrantı verilmişdir.

1982-1987-ci illərdə K.Y.Əcəmov Azərbaycan Neft və Kimya İnstitutunun Kimya texnologiya fakültəsinin dekanı vəzifəsində çalışmışdır.

1989-cu ildən Neftin, qazın kimyası və emalı texnologiyası kafedrasının müdiri keçməsi ilə əlaqədar olaraq professor K.Y.Əcəmov Azərbaycanın neft emalında katalitik proseslər sahəsində elmi tədqiqatlar aparmağa başlamışdır.

Eyni zamanda, K.Y.Əcəmov 1989-cu ildən "Neftin, qazın geotexnoloji problemləri və kimya" Elmi-Tədqiqat İnstitutunun "Neft emalında kataliz" laboratoriyasının müdiri təyin olunmuşdur.

"Kinetika və kataliz" dərsliyinin müəllifidir. O, 500-dən çox çap edilmiş elmi əsərin, o cümlədən 45 ixtira və patentin, 32 kitabın müəllifidir.

Professor K.Y.Əcəmov respublikamızda və onun əhatəsindən kənarda keçirilən beynəlxalq konfranslarda və simpoziumlarda fəal iştirak edir.

Onun rəhbərliyi altında aparılmış tədqiqatların nəticələri dövri elmi ədəbiyyatda mütəmadi dərc olunur.

Onu da qeyd etmək lazımdır ki, 2016-cı ildə professor Keykavus Əcəmovun rəhbərliyi altında elmi-tədqiqat qrupu Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun əsas qrant müsabiqəsi çərçivəsində təqdim olunmuş "Karbohidrogen xammalının oksidləşdirici katalitik krekinqi (oksikrekinq)" layihəsi ilə qalib olub.

Professor K.Y.Əcəmov elmi kadrların hazırlanmasında da böyük işlər görür. Onun rəhbərliyi altında 35 elmlər namizədi, 4 fəlsəfə elmləri doktoru və 5 elmlər doktoru hazırlanıb.

Onun tələbələrinin bir çoxu xarici ölkələrdə yaşayırlar. Onların arasında ABŞ, Misir, Sudan, Nigeriya, Pakistan, Suriya, Mərakeş, Yəmən, Madaqaskar, İordaniya, Livan və s. xarici dövlətlərin vətəndaşları da vardır. Onlarla tez-tez əlaqə yaradır, işləri, yaşayış tərzləri ilə maraqlanır.

Dövlətimiz tərəfindən xalqın bütün ziyalılarına, mədəniyyət işçilərinə, həkimlərinə, hər bir vətəndaşına dəyər verilir. Keykavus Əcəmov 1991-ci ildə SSRİ "Fəxri neft kimyaçısı", 2000-ci ildə "Əməkdar müəllim" fəxri adlarına layiq görülmüşdür. Amerikanın Kimya Mühəndislər İnstitutunun fəxri üzvü, Beynəlxalq Eko-Energetika Akademiyasının həqiqi üzvüdür.

1995-2000-ci və 2005-ci ildən bu günə kimi Azərbaycan Respublikası Prezidenti yanında AAK-ın ekspertidir.

K.Y.Əcəmov 2010-cı ildən Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin (ADNSU) Neft-kimya texnologiyası və sənaye ekologiyası kafedrasının professorudur.

Professor Keykavus Əcəmovun bu uğurları ADNSU-nun uğurlarıdır. Ona elmi-pedaqoji fəaliyyətində yeni-yeni uğurlar, işlərində müvəffəqiyyətlər, cansağlığı və uzun ömür arzulayırıq.

**Elvira Hüseynova,**
*Neft-kimya texnologiyası və sənaye ekologiyası kafedrasının dosenti*

**Bahar Babayeva,**
*ADNSU Azİİ Elektron kitab evinin kitabxanaçısı*

# SOCAR-ın TENDERLƏRİ



*Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)*

## "Neftqaztikinti" Tresti

**müxtəlif ikitavrlara olan tələbatını təmin etmək məqsədi ilə açıq satınalma müsabiqəsi üzrə müraciətlərin son tarixinin, həmçinin təklif zərflərinin açılış tarixinin müddətinin uzadılmasını elan edir. (25051-19)**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***

* Müsabiqədə iştirak haqqında müraciət;
* İştirak haqqının ödənilməsi barədə bank sənədi;
* Müsabiqə təklifi.

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 25.04.2019-cu il, Bakı vaxtı ilə saat 17:30-a qədər Azərbaycan, rus və ya ingilis dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***

* Müsabiqə təklifi bir əsli və 2 surəti olmaqla 02.05.2019-cu il, Bakı vaxtı ilə saat 12:00-a qədər Satınalan təşkilata təqdim olunmalıdır.
* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.

***III. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***

* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan, rus və ya ingilis dilində əldə etmək istəyənlər 590 manat (ƏDV-ilə) və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I qrafasında göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.

Hesab nömrəsi:
Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X.

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

***IV. Müqavilənin icra müddəti:***

Satınalma müqaviləsinin veriləcək sifariş əsasında 60 təqvim günü ərzində yerinə yetirilməsi tələb olunur.

**Bank təminatı:**

İddiaçının təqdim etməli olduğu müsabiqə təklifinin təminatı müsabiqə təklifinin ümumi qiymətinin 2 (iki) %-dək məbləğindən aşağı olmamalıdır.

Avans ödənişin təminatının məbləği ən azı ödəniləcək avans məbləğinə bərabər olmalıdır.

Müqavilənin yerinə yetirilməsi təminatı satınalma müqaviləsinin qiymətinin 5% məbləğində müəyyənləşdirilir.

***V. Satınalan təşkilatın ünvanı:***

AZ1018 (indeks), Xətai rayonu, 2922 məhəllə, Zığ yolu küçəsi 41C, "Neftqaztikinti" Trestinin inzibati binasının 3-cü mərtəbəsi, Bakı şəhəri, Azərbaycan Respublikası.

**Əlaqələndirici şəxs:**
Astanov Siyavuş
Maddi-Texniki Təchizat və Marketinq şöbəsinin mühəndisi
Telefon nömrəsi: +994 12 521-00-00 25-125
Korporativ mobil: +994 50 454 66 33
Elektron ünvan: siyavush.astanov@socar.az

***VI. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***

www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***VII. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***

Zərflərin açılışı 02.05.2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 12:30-da elanın V qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***VIII. Müsabiqənin nəticəsi haqqında məlumat:***

Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə edilə biləcək:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**"Neftqaztikinti" Trestinin Satınalmalar qrupu**



*Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)*

## "Neftqaztikinti" Tresti

**A-I və A-III armaturlara olan tələbatını təmin etmək məqsədi ilə açıq satınalma müsabiqəsi (25067-19) elan edir.**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***

* Müsabiqədə iştirak haqqında müraciət;
* İştirak haqqının ödənilməsi barədə bank sənədi;
* Müsabiqə təklifi.

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 07.05.2019-cu il, Bakı vaxtı ilə saat 17:30-a qədər Azərbaycan, rus və ya ingilis dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***

* Müsabiqə təklifi bir əsli və 2 surəti olmaqla 14.05.2019-cu il, Bakı vaxtı ilə saat 10:30-a qədər Satınalan təşkilata təqdim olunmalıdır.
* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.

***III. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***

* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan, rus və ya ingilis dilində əldə etmək istəyənlər 354 manat (ƏDV-ilə) və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I qrafasında göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.

Hesab nömrəsi:
Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X.

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

***IV. Müqavilənin icra müddəti:***

Satınalma müqaviləsinin veriləcək sifariş əsasında 60 təqvim günü müddətinə yerinə yetirilməsi tələb olunur.

**Bank təminatı:**

İddiaçının təqdim etməli olduğu müsabiqə təklifinin təminatı müsabiqə təklifinin ümumi qiymətinin 2 (iki) %-dək məbləğindən aşağı olmamalıdır.

Avans ödənişin təminatının məbləği ən azı ödəniləcək avans məbləğinə bərabər olmalıdır.

Müqavilənin yerinə yetirilməsi təminatı satınalma müqaviləsinin qiymətinin 5 % məbləğində müəyyənləşdirilir.

***V. Satınalan təşkilatın ünvanı:***

AZ1018 (indeks), Xətai rayonu, 2922 məhəllə, Zığ yolu küçəsi 41C, "Neftqaztikinti" Trestinin inzibati binasının 3-cü mərtəbəsi, Bakı şəhəri, Azərbaycan Respublikası.

**Əlaqələndirici şəxs:**
Astanov Siyavuş
Maddi Texniki Təchizat və Marketinq şöbəsinin mühəndisi
Telefon nömrəsi: +994 12 521-00-00 25-125
Korporativ mobil: +994 50 454 66 33
Elektron ünvan: siyavush.astanov@socar.az

***VI. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***

www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***VII. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***

Zərflərin açılışı 14.05.2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 11:00-da elanın V qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***VIII. Müsabiqənin nəticəsi haqqında məlumat:***

Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə edilə biləcək:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**"Neftqaztikinti" Trestinin Satınalmalar qrupu**

VAHİD AZƏRBAYCAN UĞRUNDA!
# iki sahil
Son səhifə
www.ikisahil.az / www.ikisahil.tv
16
GÜNDƏLİK İCTİMAİ-SİYASİ QƏZET
№ 70 (7325) / Cümə, 19 aprel 2019-cu il

**Stressli və ya narahat olduğunuz zaman dırnaqlarınızımı çeynəyirsiniz? Bu sıxıntılı vərdiş təkcə dırnaqlarınıza və dişlərinizə zərər vermir, həm də sağlamlıq problemləri yarada bilər. Niyə insanlar dırnaqlarını çeynəyirlər? Bu vərdişi dayandırmaq üçün nə etmək olar?**

* Birincisi, dırnaqlarınızı qırmaq dırnaq formasını poza bilər. Bu vərdişi uzun müddət davam etdirsəniz, bir müddətdən sonra dırnaqlarınız pis formada olar.

* Dırnaqlarınızı dişləyərkən dişinizə də zərər verə bilərsiniz.

* Bu, xəstəliklərə səbəb ola bilər.



# Pis vərdişlər stressin qarşısını almır

Əllərimiz və dırnaqlarımız mikrobların ən çox yerləşdiyi yerlərdir. Dırnaqlarınızı tez-tez ağızınıza salaraq bu mikrobları bədəninizə daxil edə və nəticədə xəstələnə bilərsiniz.

* Dırnaq yemək sosial cəhətdən xoşagəlməz bir vərdişdir.

Dırnaq yemək vərdişi sağlamlığınız üçün gizlənmiş bir təhlükə ola bilər. Bununla yanaşı, uzunmüddətli bir problem də yarada bilər.

Dırnaqlara və ətraf toxumalara zərər verməyə davam edən və qarşısı alına bilməyən dırnaqyemə halları gözləmə pozuqluğu hesab edilir. Bu pozuqluq adətən onikfaji adlandırılır. Obsesif-kompulsif və əlaqə pozuqluğu olaraq da təsnif edilir.

Ailədə də bu vərdişin olması, mənəvi və ya zehni stress, əsəbilik, qayğı, çətinlik, aclıq, etibarsızlıq kimi mümkün səbəblər də ola bilər.

**Bu pis vərdiş necə dayandırmaq olar?**

* Dırnaqlarınızı qısa saxlayın.

Dırnaqlarınızın qısa kəsilməsi və mütəmadi olaraq qısa saxlanılması dırnaq çeynəməyin qarşısını almaq üçün ən yaxşı yollardan biridir. Dişləmək üçün heç bir şey olmadıqda, nəhayət, vərdişi tərgidəcəksiniz.

* Manikür etdirin.

Gözəl bir manikür etdirin. Manikür əllərlə yanaşı dırnaqların da gözəl görünməsinə yardımçı ola bilər. Manikürü korlamaq istəmədiyiniz üçün dırnaqlarınızı çeynəmək vərdişindən də getdikcə uzaqlaşacaqsınız.

* Səbəbi axtarın.

Dırnaqlarınızı çeynəməyə sizi nələrin vadar etdiyinə diqqət edin. Sıxıldığınız zaman dırnaqlarınızımı çeynəyirsiniz? Yoxsa narahat olduğunuz zamanmı? Araşdırmalar göstərir ki, insanlar sıxılmış, ac, gərgin və ya stressli olduğu zaman dırnaqlarını çeynəməyə başlayırlar. Səbəbi müəyyən edin və dırnaqlarınızı çeynəməyi dayandırmaq üçün bununla mübarizə yollarını tapın.

* Əllərinizi məşğul edin.

Əllərinizi məşğul etmək də yaxşı bir həll yoludur. Dırnaqlarınızı çeynəmək istədiyiniz zaman saqqız çeynəyin və ya stress topunu sıxın. Alternativləri çoxalda bilərsiniz.

* Acı dırnaq boyasından istifadə edin.

Acı dırnaq boyasından istifadə etmək dırnaqlarınızı çeynəməyinizin qarşısını almaq üçün mükəmməl bir hiylədir.

**Röya Rasimqızı,**
***"İki sahil"***

# "Bakcell" Formula 1 Azərbaycan Qran-Prisinin ilk rəsmi dəstəkçisidir




**Bakı Şəhər Halqası (BŞH) Əməliyyat Şirkəti ilə "Bakcell" şirkəti arasında Formula 1 Azərbaycan Qran-Prisinə dəstəyin göstərilməsinə dair üçillik sponsorluq müqaviləsi imzalanıb.**

Əldə olunmuş ikitərəfli razılığa əsasən, "Bakcell" şirkəti Bakıda baş tutacaq növbəti 3 yarışa dəstək göstərmək müqabilində həmin yarışlar ərəfəsində Formula 1-in yerli şirkətlər üçün təqdim etdiyi bir sıra fürsətlərdən yararlanmaq imkanına sahib olacaq. Belə ki, müqavilə çərçivəsində Bulvar tribunasına "Bakcell" şirkətinin adı veriləcək və bu tribuna şirkətin korporativ vizual elementləri ilə rənglənəcək.

Bundan başqa, bulvar ərasizində yerləşən Formula 1-in azarkeşlər zonasında "Bakcell" üçün xüsusi yer ayrılacaq. Həmçinin şirkət yarış həftəsonu ərzində trek ətrafında yerləşən ictimai məkanlarda öz məhsullarını Azərbaycan Qran Prisinin tamaşaçılarına təqdim edə və burada yerləşən böyük ekranlarda öz videoçarxlarını nümayiş etdirə biləcək.

Azərbaycan Qran-Prisinə yerli şirkətlərin maraq və dəstək göstərməsindən böyük məmnunluq duyduğunu bildirən BŞH-nin Kommersiya şöbəsinin rəhbəri Bülent Özərdim yeni qurulan əməkdaşlığın gələcəkdə daha da böyüyəcəyinə əminliyini bildirib: "Bildiyiniz kimi, bu ilin əvvəlində biz Formula 1 rəhbərliyi ilə Azərbaycan Qran-Prisinin 2023-cü ilədək yarış təqvimində qalmasını təmin edən yeni müqavilə imzaladıq. Həmin müqavilə əsasında bəzi kommersiya haqları bizə verilmişdi və biz də bugünkü tədbir sayəsində həmin haqların ilk bəhrəsini görürük.

"Bakcell" kimi böyük nüfuza sahib yerli şirkətin Azərbaycan Qran-Prisinə xüsusi dəstək göstərməyi bizi həqiqətən çox sevindirdi. İnanıram ki, bu gün imzaladığımız müqavilə qısa müddət ərzində hər iki tərəfə böyük faydalar verməklə əməkdaşlığın uzun illər boyunca güclənərək böyüməsini təmin edəcək".

Tədbirdə "Bakcell" şirkəti adından çıxış edən şirkətin baş marketinq direktoru Todor Dimitrovski yeni əməkdaşlığın "Bakcell" üçün xüsusi əhəmiyyət daşıdığını qeyd edib: "Bu əməkdaşlıq bizim üçün xüsusi əhəmiyyət daşıyır. Çünki "Bakcell" Azərbaycanın ən sürətli mobil şəbəkəsidir, Bakı Şəhər Halqası isə Formula 1 təqviminin ən sürətli şəhər trekidir. Azərbaycan Qran-Prisi ölkədə idman və iqtisadiyyatın inkişafı və xüsusilə Azərbaycanın dünyada tanıdılması baxımından böyük rol oynayır.

"Bakcell" də öz növbəsində milli mobil operator olaraq ölkənin inkişafına töhfə verən layihələrə daim dəstəyini göstərir və Azərbaycan üçün mühüm olan tədbirləri dəstəkləyir. Əminəm ki, bu əməkdaşlıq çox uğurlu olacaq və bütün tərəflərə fayda verməklə yanaşı, həm də Formula 1 həvəskarlarına əlavə imkanlar və xoş sürprizlər gətirəcək".

# Salah "Liverpul"dan gedir



Baş məşqçi Yurgen Klopp ilə hərarətli bir mübahisə yaşayan Məhəmməd Salahın mövsümün sonunda "Liverpul"dan ayrılmaq üçün icazə istədiyi xəbəri yayılıb.

Milli.Az İspaniyanın "AS" qəzetinə istinadən xəbər verir ki, Salahın komandadan ayrılması son günlər gündəmə gəlib.

Ötən mövsümdə 52 oyunda 44 qol vuraraq rekordları alt-üst edən 26 yaşlı futbolçu üçün "Real Madrid"ə getməsi söylənilsə də, Madrid klubunun planlarında belə bir transfer həmləsinin olmadığı bildirilib.

Ötən mövsüm Çempionlar Liqası finalında Madrid "Real"ına uduzan "Liverpul" bu il də final yolundadır. Onlar yarımfinalda "Barselona" ilə mübarizə aparmalı olacaqlar. "Qırmızılar" İngiltərə Premyer Liqasında isə liderlik üçün "Mançester Siti" ilə başabaş mübarizə aparırlar.

# "Chelsea" Hazardın qiymətini aşağı saldı



"Chelsea" futbolçusu Eden Hazardın transfer qiymətini aşağı salıb.

Milli.Az Goal.az-a istinadən xəbər verir ki, qərar mövsümün sonunda 28 yaşlı hücumçunu heyətinə qatmaq istəyən İspaniya "Real Madrid"i ilə danışıqlar ərəfəsində verilib.

London təmsilçisi daha öncə belçikalı oyunçu üçün 116 milyon avro tələb edib. Hazırda isə bu məbləğ 103-105 milyon avroya qədər endirilib. Madrid təmsilçisi isə Azar üçün 80-90 milyon avro ödəməyə hazırdır.

Qeyd edək ki, Eden Hazard 2012-ci ilin yayında Fransa "Lille"sindən 35 milyon avro qarşılığında "Chelsea"yə keçib. O, cari mövsüm İngiltərə Premyer Liqasında 33 oyuna 16 qol vurub.

**ALLAH RƏHMƏT ELƏSİN!**

SOCAR-ın "Qaz İxrac" İdarəsinin rəhbərliyi, Həmkarlar İttifaqı Komitəsi və əmək kollektivi SOCAR-ın "Azəriqaz" İB-nin Şikayətlərin araşdırılması şöbəsinin rəisi
**Faiq Zeynalovun**
vəfatından kədərləndiklərini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verirlər.

Təsisçi: SOCAR

Baş redaktor:
Vüqar RƏHİMZADƏ
Baş redaktorun I müavini:
İsmayıl HACIYEV

Bakı: Kapital Bankın 1 saylı Xətai filialı H/hesab
№AZ19AIIB380300194437 00306107
Kod № 200071
VÖEN: 2000157291

TELEFONLAR:
Qəbul otağı: 530-26-46, 430-87-97
Baş redaktorun I müavini: 530-26-36
FAX: 430-87-47
Mühasibatlıq: 430-87-27
e-mail: ikisahil@azdata.net

Ünvan:
AZ1012 Bakı,
H.Zərdabi
prospekti-88

Qəzet "İKİ SAHİL"in kompyuter mərkəzində yığılır və "AZƏRBAYCAN" nəşriyyatında ofset üsulu ilə çap olunur.
Çapa imzalanıb:
19.04.2019-cu il saat 01:00
Qiyməti: 40 qəpik, Sayı: 8213
İndeks: 0151, Sifariş: 1278

Qəzetdə "AZƏRTAC", "OLAYLAR", "Azadİnform", "TREND", SİA, İnterFAX informasiya agentliklərinin məlumatlarından istifadə olunub.

Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.